Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 118 (8141) CÜMƏ, 31 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin qurduğu Azərbaycan

## Tarixinin ən qüdrətli dövrünü və möhtəşəm xalq-lider vəhdətini yaşayan kiçik məmləkət böyük dünyanı necə heyran edir?

**Dünən səhərə doğru dünyanın hər bucağından 1 milyarda qədər seyrçi televiziyalarının qarşısında bayram sevinci yaşadı. Futbol üzrə Avroliqanın finalının həyəcanından vəcdə gələn azarkeşlər həm də ekran qarşısında maraqlı mənzərələrə şahid oldular.**

**Bir milyard insan bütün stadion boyu müxtəlif ölçülərdə dalğalanan on minlərlə bayrağın məhz Azərbaycanın rəmzi olduğunu bildi...**

**Tamaşaçı rekordunun yaşandığı stadionun yerləşdiyi şəhərin Bakı olduğunu öyrəndi...**

**Çoxsaylı idman telekanalları və sayt-mətbuatı vasitəsilə avropalı futbolçuların, azarkeşlərin dilindən azərbaycanlıların böyük mədəniyyətə, zəngin dəyərlərə, füsunkar paytaxta malik olduğunu eşitdi...**

### Keçmişi niyə unutmamalıyıq?

Dünya bir daha azərbaycanlıları, Azərbaycanı, Bakını tanıdı, - özü də yaxşı tərəfdən. Bu cümləni oxuyarkən, lütfən, çox da uzaq olmayan tarixi - 25-30 il öncəni xatırlayaq.

Az qala bütün dünya bizi "soyqırımları törədən barbarlar", "məzlum ermənilərin qanına susayan vəhşilər", "mədəniyyətdən, müasirlikdən uzaq, tör-töküntü, pinti şəhərləri olan xalq" kimi tanımırdımı?!

Etiraf edək, onilliklər boyu bu beynəlxalq təəssürat altında yaşamışıq!

Qlobal miqyasda təklənmişik, qarşı tərəflərdə qıcıq yaratmışıq, bizi dinləməyiblər, səsimizi kəsiblər, ən adi məclislərə belə dəvət etməyə lüzum görməyiblər!

Birləşib Qarabağı əlimizdən alıblar!..

Bir milyondan artıq soydaşımızın məşəqqətli köçkünlük həyatını görməzdən gəliblər!..

Tək bunlarmı? Əlbəttə ki, yox, bu qara siyahının sonu heç bitirdimi?!

Amma indi - az qala hər ay beynəlxalq foruma, konfransa, sammitə evsahibliyi edən, bir xarici prezidenti yola salmamış digərini qarşılayan ölkənin vətəndaşları olaraq əsla tariximizi - o qaranlıq keçmişimizi unutmamalıyıq!

Bu gün hansısa beynəlxalq tədbirə görə yarım saatlıq bağlanan yola görə əsəbiləşəndə isə xatırlamalıyıq ki, onilliklər boyu dünyanın gözündə qapqara görünməkdən usanmışdıq, bezmişdik, ən əsası bu rəzil yalanların qarşısında müqavimətimizi itirib təslim olmuşduq...

Ta Heydər Əliyev gələnədək...

### "Qara siyahı"dan örnək siyahısına...

Bu vəziyyətin necə dəyişdiyini, hansı məhrumiyyətlər, çətinlikilər, fədakarlıqlar nəticəsində "qara halqa"dan çıxdığımızı bəlkə də hər gün yada salmağa lüzum olsa da, bu dəfə keçilən yola nəzər salmayaq, sadəcə nəticələrlə kifayətlənək:

- Azərbaycanı "xalqların müqəddəratını təyinetmə hüququnu pozmaqda və dinc əhaliyə qarşı zorakılıqda ittiiham edən" böyüyündən kiçiyinədək bütün beynəlxalq təşkilatlar Qarabağı indi Azərbaycan yurisdiksiyasında tanıyır;
- hər iclaslarında Azərbaycan əleyhinə bir qətnamə qəbul etməyə adətkarda olan beynəlxalq təşkilatlar artıq sammitlərini, konfranslarını nəinki ölkəmizin paytaxtında, hətta bölgələrində keçirir;
- Azərbaycanı bölgənin təhlükəsizliyinə "ən böyük təhdid" kimi qələmə verən xarici təsisatlar bu gun qlobal təhlükəsizliyin təminatında ölkəmizin töhfəsini əvəzsiz qiymətləndirir, bu yönümdə xidmətlərindən bəhrələnir, onu örnək kimi qəbul edir;
- Azərbaycanı "Qafqazın inkişafına, rifahına zərər vuran siyasət" yürütməkdə ittiham edənlər bu gün Qafqaz iqtisadiyyatının 80 faizinə sahib olan məmləkətimizin iştirakı olmadan adi bir layihənin də həyata keçmədiyini anlayır və qlobal enerji təhlükəsizliyinin təminində vacib aktor sayır;
- beynəlxalq təşkilatlarda illər boyu ən yaxşı halda müşahidəçi statusunda iştirak edən Azərbaycan artıq BMT Təhlükəsizlik Şurasına sədrlik edir, 150-yə yaxın üzv dövləti birləşdirən Qoşulmama Hərəkatının üç illik rəhbəridir;
- bizim bütün yollarımızı uzun illər hər istiqamətdə kəsənlərin indi öz yolu, əslində isə qlobal inkişafın, rifahın, ticarətin, sabitliyin yolu məhz Azərbaycandan keçir...

Ardı 3-cü səh.

# Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ətrafında fikir mübadiləsi aparıldı



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan həmsədri Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Latviya Respublikasının yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Egils Levitsə

Hörmətli cənab Levits!

Latviya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan-Latviya münasibətləri xoş ənənələrə malikdir. Ümidvaram ki, dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2019-cu il*

## Litva Respublikasının yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Gitanas Nausedaya

Hörmətli cənab Nauseda!

Litva Respublikasının Prezidenti vəzifəsinə seçkilərdə qələbəniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Litva arasındakı münasibətlər dinamik və ardıcıl inkişaf yolundadır. Ümidvaram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2019-cu il*

# Donald Trampdan İlham Əliyevə növbəti dəstək

## ABŞ Prezidentinin Azərbaycan liderinə beş gün ərzində ikinci məktubu respublikamızın yüksək beynəlxalq nüfuzundan xəbər verir

**Sürətli inkişafı və milli maraqlarını təmin edən siyasət yürütməsi Azərbaycanı yerləşdiyi bölgədə fərqləndirən əsas keyfiyyətlərdir. Respublikamız dünyanı düşündürən aktual, qlobal narahatlıq doğuran bütün məsələlərdə özünün qətiyyətli və cəsarətli mövqeyini ortaya qoyur, malik olduğu resurs və potensialdan düzgün istifadə ilə inkişaf edir.**

### Donald Trampdan İlham Əliyevə: "Sizin liderliyinizi dəyərləndirirəm"

Təsadüfi deyil ki, inkişaf etmiş və beynəlxalq siyasi arenada xüsusi çəkisi olan aparıcı Qərb dövlətlərinin rəhbərləri Azərbaycanın regiondakı və beynəlxalq məsələlərdəki aparıcı rolunu yüksək qiymətləndirirlər. Onların siyasi-iqtisadi və hərbi dairələri enerji təhlükəsizliyi, iqtisadi əməkdaşlıq, terrorçuluqla mübarizə və digər bu kimi məsələlərdə Azərbaycanın mövqeyini bölüşür, ölkəmizlə tərəfdaşlığa önəm verirlər. Ən əsası isə ondan ibarətdir ki, Qərb dünyası Azərbaycan Prezidentinin siyasi-iqtisadi kursunun, beynəlxalq məsələlərə münasibətdə mövqeyinin nə qədər mütərəqqi olduğunu görür, İlham Əliyevin liderliyini xüsusi vurğulayırlar.

Məsələn, ABŞ Prezidenti Donald Tramp 28 May - Respublika Günü münasibətilə Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda iki ölkə arasındakı güclü əməkdaşlığı qeyd edərək yazır: *"Dövlətlərimiz arasında bir çox ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur.*

Ardı 3-cü səh.

# Azərbaycan və futbol qalib gəldi

**Mayın 29-da Azərbaycan Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva və ailə üzvlərinin də Bakı Olimpiya Stadionunda baxdığı Londonun "Çelsi" və "Arsenal" klubları arasında UEFA Avropa Liqasının 48-ci finalı "Çelsi"nin 4:1 hesablı qələbəsi ilə başa çatdı. Səbirsizliklə gözlənilən matç əsl futbol bayramına çevrildi.**

Möhtəşəm açılış mərasimi və gərgin mübarizə ilə yadda qalan final oyunu bitdikdən sonra bir neçə rekord və maraqlı nəticələr əldə olunub. Belə ki, son beş ildə dördüncü dəfə finalda bir oyunçu iki dəfə fərqlənib; ardıcıl olaraq dördüncü finaldır ki, fransız futbolçusu qol vurur; Oliviye Jiru Bakıda vurduğu 11-ci qolla Avropa Liqasının bombardiri oldu; "Çelsi" bu kuboku bir dəfədən çox qazanmış 13-cü klub kimi tarixə düşdü; 60 yaşlı baş məşqçi Mauritsio Sarri Avropa Liqasının kubokunu qazanmış ən yaşlı məşqçidir; 140 kubok oyunu keçirmiş (ümumilikdə 851 oyun) və bunların 59-da qol buraxmamış "Arsenal"ın qapıçısı Petr Çex futbolçu karyerasını başa vurdu.

Ardı 5-ci səh.








# Qlobal əməkdaşlığın rəmzinə çevrilən tədbir

**Bakı Ekspo Mərkəzində 26-cı Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi davam edir. İlk dəfə 1994-cü ildə keçirilən və artıq ənənə halını alan bu sərgi ötən dövr ərzində əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş qlobal beynəlxalq əməkdaşlığın simvoluna çevrilib.**



Prezident İlham Əliyevin, hər il olduğu kimi, bu dəfə də sərginin açılışında iştirak etməsi tədbirin yüksək statusunu bir daha təsdiqləyir. Adətən bir sıra ölkələrin, o cümlədən ABŞ-ın dövlət başçıları Xəzər Neft və Qaz Sərgisinə təbrik məktubu ünvanlayırlar ki, bu da onun beynəlxalq standartlara cavab verən tədbir olduğunu göstərir. Sərginin yüksək statusunu sponsor heyətinin tərkibi də əks etdirir. Budəfəki sərginin baş tərəfdaşı kimi SOCAR çıxış edir. Qızıl sponsor BP, gümüş sponsor isə TPAO-dur. Bürünc sponsorlar da var ki, bunlar "Azeri MI Drilling Fluids", "AZFEN", "Baku Steel Company", "Bos Shelf", "Caspian Drilling Company" və başqalarıdır.

Bu şirkətlər sərgi pavilyonlarında da əhəmiyyətli yer tuturlar. Tərəfdaşları ilə birlikdə son illərin ən uğurlu layihələrinə imza atan SOCAR-ın və BP-nin sərgi sahələrində "Azəri-Çıraq-Günəşli"nin (AÇG) nailiyyətlərini göstərən ekspozisiyalar xüsusilə diqqəti cəlb edir. Bu da təsadüfi deyil.

Ardı 4-cü səh.

# Bol nemətli Masallı

**Rahat, şüşə kimi hamar yolla irəlilədikcə adamın ürəyi açılır. Yol yoldaşım Masallı Rayon İcra Hakimiyyətinin məsul işçisi İntiqam Bağırovdan "Maşallah, yaxşı yollarınız var, digər kəndarası yollarınız da belədir?" deyə soruşuram.**

"Demək olar ki, hamısı, - deyə müsahibim söhbətə başlayır. - Bir istiqamətdə, Masallı-Köhnə Alvadı-Təzə Alvadı-Güllütəpə-Əmirtürbə-Yeni Zuvand yolu qalmışdı ki, sağ olsun cənab Prezident İlham Əliyev bu barədə də 16 aprel 2019-cu il tarixdə sərəncam imzaladı. Hazırda orada qızğın iş gedir. Yolun Güllütəpə-Əmirtürbə-Yeni Zuvand hissəsində işlər başa çatdırılmışdır. Qalan hissəsinin vaxtında istifadəyə verilməsi üçün yolçəkənlər yorulmaq bilmədən çalışırlar".

Getdiyimiz yolun hər iki tərəfində insanlar öz işləri ilə məşğul idilər. Biçilmiş otu yığan, presləyən, maşınlara yükləyən kim, kartof, çiyələk, badımcan, sarımsaq, lobya sahələrində yetişib hasilə gələn məhsulu toplayan kim, çəltik əkini aparan kim, çay plantasiyalarını, tütün, yemiş və digər bostan-tərəvəz əkinlərini becərən kim. Necə deyərlər, həyat hər tərəfdə bulaq kimi qaynayırdı.

Arana nisbətən cənub bölgəsinə istilər bir az gec düşür. Arpa zəmiləri ağarsa da, buğda, vələmir hələ göydür. Mal-qara, qoyun-quzu da otlaq üçün ayrılmış bələdiyyə torpaqlarındakı otlaqlarda otlayır. Yaz yağmurlu keçdiyindən dəmyə torpaqlarda bol taxıl məhsulu yetişməkdədir.

Ardı 6-cı səh.



## “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq, “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1362-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

“Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 601; 2006, № 2, maddə 64, № 3, maddə 221; 2007, №11, maddə 1078; 2008, № 8, maddə 710; 2010, № 3, maddə 172; 2014, № 7, maddə 763) 20.3-cü maddəsində “və müavinətlər” sözləri “, müavinətlər, büdcədənkənar vəsaitlər hesabına hesablanan əlavələr və digər ödənişlər” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 may 2019-cu il*

## “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1573-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1573-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 may 2019-cu il*

## “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 655; 2007, № 6, maddə 595; 2009, № 12, maddələr 948, 954, 968; 2011, № 2, maddə 71; 2014, № 10, maddə 1150; 2016, № 6, maddə 1013; 2017, № 5, maddə 713; 2018, № 4, maddə 641, № 12 (I kitab), maddə 2491) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü maddə üzrə:

1.1.1. adına “xidmətinin” sözündən əvvəl “dövlət fitosanitar” sözləri əlavə edilsin;

1.1.2. 3.0-cı maddədən “və xidməti” sözləri çıxarılsın;

1.1.3. 3.0.3-cü maddədə “qaydalarına və normativlərinə” sözləri “normalara” sözü ilə əvəz edilsin;

1.1.4. 3.0-cı maddə 3.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 3.2-ci maddə əlavə edilsin:

“3.2. Dövlət fitosanitar xidməti aşağıdakıları əhatə edir:

3.2.1. fiziki və hüquqi şəxslərin, habelə dövlət və yerli özünüidarəetmə orqanlarının müraciəti əsasında bitki və bitkiçilik məhsulları saxlanılan anbarlarda, bazarlarda, həyətyanı sahələrdə, fərdi və kollektiv bağ və bostan sahələrində, torpaqlarda, xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində müayinələr, müşahidələr aparılmasını, profilaktika və bitki mühafizəsi sahəsində xidmətlərin həyata keçirilməsini;

3.2.2. bitki və bitkiçilik məhsullarının istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslərə onların müraciəti əsasında bitki mühafizəsi məsələlərinə, pestisidlərin, bioloji preparatların və digər bitki mühafizə vasitələrinin istifadəsi, saxlanılması və daşınması texnologiyasına və reqlamentinə dair tövsiyələr verilməsini;

3.2.3. əkin sahəsində və digər kənd təsərrüfatına yararlı torpaqlarda aqrokimyəvi tədqiqat işlərinin aparılmasını, sahələrə aqrokimyəvi pasportların verilməsini və kartoqramların hazırlanmasını.”;

1.2. 7-ci maddə üzrə:

1.2.1. 7.2-ci maddəyə “fitosanitar nəzarətini” sözlərindən sonra “(dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilmiş yüklər (mallar, məhsullar) üzərində fitosanitar nəzarəti ilə bağlı tədbirləri isə gömrük orqanları ilə birlikdə)” sözləri əlavə edilsin və həmin maddədə “orqanı” sözü “orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

1.2.2. aşağıdakı məzmunda 7.3-cü maddə əlavə edilsin:

“7.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fitosanitar nəzarətini bu Qanunun, sahibkarlara münasibətdə isə həmçinin “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirir.”;

1.3. 13.1-ci maddənin birinci cümləsinə “qanunvericilikdə nəzərdə tutulmuş qaydada” sözlərindən sonra “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)” sözləri, ikinci cümləsinə “məntəqələrinin” sözündən sonra “(dövlət sərhədinin buraxılış məntəqələri istisna olmaqla)” sözləri əlavə edilsin;

1.4. 22-ci maddə üzrə:

1.4.1. adına “yararsız” sözündən sonra “və istifadəsi qadağan olunmuş” sözləri əlavə edilsin;

1.4.2. 22.1-ci maddədə “qanunvericilikdə nəzərdə tutulmuş qaydada” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən xüsusi anbarlarda (qəbiristanlıqlarda)” sözləri ilə əvəz edilsin;

1.4.3. 22.2-ci maddə ləğv edilsin;

1.5. 34-cü maddə üzrə:

1.5.1. adına “xidmətinin” sözündən əvvəl “dövlət fitosanitar” sözləri əlavə edilsin;

1.5.2. 34.3-cü maddədə “hüquqi və fiziki şəxslərə göstərilən aşağıdakı dövlət fitosanitar xidmətləri həmin” sözləri “aşağıdakı fitosanitar tədbirləri və dövlət fitosanitar xidmətləri hüquqi və fiziki” sözləri ilə əvəz edilsin;

1.5.3. aşağıdakı məzmunda 34.6-cı maddə əlavə edilsin:

“34.6. Bu Qanunun 34.3-cü maddəsində nəzərdə tutulmuş tədbirlərə və xidmətlərə (“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulanlar istisna olmaqla) görə alınan xidmət haqqının məbləğləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.”.

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1 (I kitab), maddələr 4, 6, 15, 18, 23, 44; 2019-cu il 1 fevral tarixli 1476-VQD nömrəli, 19 fevral tarixli 1516-VQD nömrəli, 5 mart tarixli 1520-VQD, 1522-VQD nömrəli, 29 mart 1534-VQD, 1538-VQD nömrəli, 9 aprel tarixli 1558-VQD və 1562-VQD nömrəli qanunları) 288.0.1-ci maddəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 may 2019-cu il*

## “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1577-VQD nömrəli Qanununun tətbiqi və “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 441 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1577-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun 34.6-cı maddəsinə uyğun olaraq xidmət haqqının məbləğlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 441 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 667; 2007, № 6, maddə 613; 2010, № 3, maddə 186, № 5, maddə 402; 2014, № 11, maddə 1393; 2015, № 2, maddə 133; 2016, № 6, maddə 1041, № 12, maddə 2094; 2018, № 4, maddə 673, № 12 (I kitab), maddə 2554; 2019, № 2, maddə 248) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.1. “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun 7.2-ci, 7.3-cü maddələrində, 13.1-ci maddəsinin birinci cümləsində, 22.1-ci maddəsində (ikinci halda), 34.5-ci maddəsinin birinci (hər üç halda) və ikinci cümlələrində və 34.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;”;

3.2. 2.2-ci bəndə “22.1-ci” sözlərindən sonra “(birinci halda)” sözləri əlavə edilsin və həmin bənddən “22.2-ci,” sözləri çıxarılsın;

3.3. 2.4-cü bənddən “7.2-ci,” sözləri çıxarılsın;

3.4. aşağıdakı məzmunda 2.9-cu və 2.10-cu bəndlər əlavə edilsin:

“2.9. həmin Qanunun 34.6-cı maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.10. həmin Qanunun 7.2-ci, 7.3-cü maddələrində, 13.1-ci maddəsinin birinci cümləsində və 22.1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 may 2019-cu il*

## Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Vergilər Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin həmin nazirliyin tərkibində fəaliyyət göstərməsinin təmin edilməsi məqsədilə müvafiq normativ hüquqi aktların layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş normativ hüquqi aktların layihələri hazırlanarkən:

2.1. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində beynəlxalq standartlara və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə riayət olunması təmin edilsin;

2.2. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının müvafiq qurumlarının üzv olduğu beynəlxalq təşkilatlar bu sahədə idarəetmənin təkmilləşdirilməsi məqsədilə görülən tədbirlər barədə məlumatlandırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2019-cu il*

## “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi göstərilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 sentyabr tarixli 497 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi göstərilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 may 2019-cu il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə İordaniya Haşimilər Krallığının xalqı və hökuməti adından, şəxsən öz adımdan Sizə təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Bu fürsətdən istifadə edərək, zati-aliləri, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah diləyirəm.

*Hörmətlə,*

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***

---

Əs-səlamu aleykum varahmatullahi vabarakatuhu.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizi təbrik etməkdən sevinc duyur, bu fürsətdən istifadə edərək İraq Respublikasının müxtəlif sahələrdə xalqlarımızın mənafeyi naminə dost ölkələrimiz arasındakı əlaqələrin inkişafına və möhkəmlənməsinə olan istəyini təsdiqləyirəm.

Cənab Prezident, Sizə davamlı müvəffəqiyyətlər və möhkəm cansağlığı, dost Azərbaycan xalqına inkişaf və rifah arzulayıram.

*Ən dərin hörmətlə,*

***Bərham SALEH,***
***İraq Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Milli bayramınız - 28 May Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Əminəm ki, ölkələrimiz arasındakı gözəl münasibətlər və əməkdaşlıq qarşıdakı illərdə daha da intensivləşəcək.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Səmimiyyətlə,*

***xanım Kersti KALYULAYD,***
***Estoniya Respublikasının Prezidenti***

---

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bizim ümumi türk köklərimiz, çoxəsrlik tarixə malik mənəvi-mədəni qohumluğumuz, zəngin əməkdaşlıq təcrübəmiz, müasir Azərbaycanın sosial-iqtisadi inkişafında qazanılmış və Sizin adınızla ayrılmaz surətdə bağlı olan sanballı uğurlar ənənəvi Başqırdıstan-Azərbaycan dostluq əlaqələrinin daha da genişlənməsi üçün yaxşı zəmin yaradır.

Rusiya Federasiyasının Başqırdıstan Respublikası Azərbaycan Respublikası ilə çoxtərəfli əməkdaşlığın inkişafına böyük əhəmiyyət verir. Bu əməkdaşlığın tarixi, ilk növbədə, “İkinci Bakı” adlandırılan Başqırdıstanın neft sahəsinin inkişafı ilə bağlıdır. Azərbaycanlı mütəxəssislər bizim respublikada neftçıxarma və neft emalı sənayesinin formalaşmasına fəal kömək ediblər.

Elm-təhsil və mədəni-humanitar əlaqələr mühüm ənənəvi sahələr kimi qalır. Azərbaycan təmsilçiləri Başqırdıstanda keçirilən mədəni tədbirlərin daimi iştirakçılarıdır. Ənənəyə görə, respublikamızda yaşayan müxtəlif millətlərin nümayəndələri Novruz bayramında bir yerə toplaşırlar və Azərbaycan diasporu sözsüz ki, ən fəal və parlaq diasporlardan biridir. Biz bütün perspektivli istiqamətlər üzrə dostluğu və tərəfdaşlığı bundan sonra da möhkəmləndirəcəyik.

Hörmətli İlham Heydər oğlu, milli bayramınız - Respublika Günü münasibətilə Sizi bir daha ürəkdən təbrik edirəm.

Sizə və bütün Azərbaycan xalqına firavanlıq, rifah və yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Radi XABİROV,***
***Rusiya Federasiyasının Başqırdıstan Respublikasının rəhbəri səlahiyyətlərini müvəqqəti icra edən***

---

Möhtərəm cənab Prezident!

İcazə verin, Sizə Moldova Respublikasının Qaqauz Yeri Muxtar Ərazi Qurumunun İcraiyyə Komitəsi adından dərin hörmət və ehtiramımı bildirim, Sizi, eləcə də Sizin şəxsinizdə Azərbaycan xalqını Respublika Günü münasibətilə təbrik edim.

Respublika Günü Azərbaycan xalqının tarixində ən əlamətdar və parlaq günlərdən biridir. Bu bayram öz vətəni, onun zəngin tarixi və özünəməxsus orijinal mədəniyyəti ilə fəxr edən hər kəsin bayramıdır. 101 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk parlamentli demokratik respublika və müsəlman Şərqində qadınlara səsvermə hüququ, eləcə də bütün vətəndaşlarına cinsindən, irqindən və dini mənsubiyyətindən asılı olmayaraq bərabər hüquqlar verən ilk dövlət olmuşdur.

Vətənpərvərlik adət-ənənələrinə sadiqliyini, eləcə də neçə-neçə nəsillərin dəyərlərini qoruyub saxlayan Azərbaycan gələcək inkişaf naminə qarşıya qoyulmuş planların uğurla reallaşdırılması yolu ilə addımlayır. Ölkə əhalisinin zəhmətsevərliyi və həyat optimizmi, tarixi keçmişə və milli ənənələrə böyük diqqət və hörmətlə yanaşması Azərbaycan Respublikasının inkişafının əsasları hesab olunur.

İcazə verin, bu təntənəli bayram günündə Sizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına cansağlığı, həmrəylik və əbədi sülh arzu edim. Qoy, hər bir insanın evində əmin-amanlıq hökm sürsün, xəstəlik və çətinliklər isə onlardan yan keçsin.

Qeyd etmək istərdim ki, Azərbaycan və Qaqauz Muxtar Ərazisini ümumi dil, mədəniyyət, adət-ənənələr və dini dəyərlər birləşdirir. Əminik ki, Azərbaycan Respublikası və Qaqauz Muxtar Ərazisi arasındakı əməkdaşlıq qardaş xalqlarımızın rifahına və qarşılıqlı dəstəyinin möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Çox hörmətli cənab Prezident, fürsətdən istifadə edərək Sizə bir daha dərin hörmət və ehtiramımı bildirirəm.

*Ən xoş arzularla,*

***Vadim ÇEBAN,***
***Moldova Respublikasının Qaqauz Yeri Muxtar Ərazi Qurumunun İcraiyyə Komitəsinin sədri vəzifəsini icra edən***

## Milli Məclisin iclasında

# Azərbaycan növbəti tarixi uğura imza atdı

## Oqtay ƏSƏDOV: "UEFA Avropa Liqasının final oyunu zamanı hüquq mühafizə orqanları yüksək peşəkarlıq nümayiş etdirdilər"






















**Milli Məclisin dünənki iclası Konstitusiya qanununa dəyişikliklə öz işinə başladı. Spiker Oqtay Əsədov bildirdi ki, mayın 30-u və 31-də keçiriləcək iclasın gündəliyinə 26 məsələ daxil edilib.**

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş) parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verərək bildirdi ki, ilk sənədə edilən dəyişiklik 12-ci maddədə həyata keçirilir. İnsan hüquqlarının pozulmasına dair şikayətə baxılması və milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi qaydasını əks etdirən maddədə bundan sonra hansısa sənədin təqdim edilməsi, alınması 10 gün deyil, 10 iş günü müddətində həyata keçiriləcək.

Sənəd səsverməyə çıxarılaraq qəbul edildi.

"Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında da (birinci oxunuş) Əli Hüseynli məlumat verdi. Təklif edilən dəyişikliyə əsasən, qanunun 16-cı maddəsinin ("Deputatın vəzifələri") ikinci cümləsi aşağıdakı kimi yeni redaksiyada verilir: "Deputat Azərbaycan Respublikası Milli Məclisinin, yaxud onun komitə və komissiyalarının iclaslarında üzrsüz səbəbdən iştirak etmədikdə, habelə Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsində nəzərdə tutulmuş digər hallarda həmin Nizamnamə ilə müəyyən edilmiş qaydada parlamentdaxili məsuliyyətə cəlb olunur".

Sənədin hazırkı variantı isə belədir: "Deputat Azərbaycan Respublikası Milli Məclisinin iclaslarında və üzvü olduğu Azərbaycan Respublikası Milli Məclisinin komitə və komissiyalarının iclaslarında iştirak etməlidir. Üzrsüz səbəbdən Azərbaycan Respublikası Milli Məclisinin və onun komitə və komissiyalarının iclaslarını buraxan deputat Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi ilə müəyyən edilmiş qaydada parlamentdaxili məsuliyyətə cəlb olunur".

Qanun layihəsinə dəyişiklik müzakirələrdən sonra səsverməyə qoyularaq qəbul edildi.

"İcra haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi də (üçüncü oxunuş) deputatlar tərəfindən müsbət qiymətləndirildi.

Milli Məclis həmçinin "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin daxili işlər orqanları (polis) və daxili qoşunları üçün kadrların hazırlanması haqqında" Sazişin, eləcə də "Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihələrini təsdiqlədi.

"Terrorçuluğa qarşı mübarizə haqqında" və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsi zamanı deputat Çingiz Qənizadə terrorçuluğa qarşı mübarizə sahəsində Azərbaycanın hüquq mühafizə orqanlarının böyük işlər gördüyünü xatırlatdı. Deputat mayın 29-da Bakıda Avropa Liqasının final oyunu ərəfəsində paytaxtda təmin edilən sakitçiliyə görə hüquq mühafizə orqanlarının işini yüksək qiymətləndirdi.

Milli Məclisin Sədri Oqtay Əsədov da hüquq mühafizə orqanlarına minnətdarlığını bildirdi: "UEFA Avropa Liqasının final oyunu zamanı hüquq mühafizə orqanları yüksək peşəkarlıq nümayiş etdirdilər. Xaricdə belə oyunlar zamanı toqquşmalar baş verir. Şükürlər olsun, bu oyun Azərbaycanda yüksək səviyyədə keçirildi".

Sənəd səsverməyə çıxarılaraq qəbul edildi.

İclasda həmçinin "Fövqəladə vəziyyət haqqında", "Milli Məclisin komitələri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinə də texniki dəyişikliklər təsdiqləndi.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ilə bağlı parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verdi. Dəyişikliyə əsasən, qanunun mövcud 2-ci maddəsində nəzərdə tutulmuş yoxlamalar siyahısına yanğın nəzarəti, tikintiyə dövlət nəzarəti, təhlükə potensiallı obyektlərin və dağ-mədən sahələrinin təhlükəsiz istismarına nəzarət və radiasiya təhlükəsizliyinə nəzarət sahəsində yoxlamalar da əlavə edilib.

Sənədin qeyd hissəsində bildirilir ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunda dəyişiklik yanğın nəzarəti, tikintiyə dövlət nəzarəti, təhlükə potensiallı obyektlərin və dağ-mədən sahələrinin təhlükəsiz istismarına nəzarət və radiasiya təhlükəsizliyinə nəzarət sahəsində yoxlamaların aparılmasına tətbiq edilən məhdudiyyəti aradan qaldırmaq məqsədilə hazırlanıb. Qanuna əsasən, ölkədə sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci il yanvarın 1-dək dayandırılıb. Lakin insanların həyat və sağlamlığının qorunması, dövlətin təhlükəsizliyinin və iqtisadi maraqların müdafiəsi məqsədilə qeyd olunan hallarda yoxlamaların həyata keçirilməsinə yol verilir.

Dəyişiklik səsverməyə çıxarılaraq qəbul edildi.

İclasda "Hesablama Palatası haqqında", "Mərkəzi Bank haqqında", "Dövlət rüsumu haqqında", "Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında", "Yol hərəkəti haqqında", "Milli arxiv fondu haqqında", "Avtomobil yolları haqqında" və "Mədəniyyət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri də ikinci oxunuşda təsdiqləndi.

Vergi və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələrinə əsasən (birinci oxunuş) Hesablama Palatası haqqında qanunvericiliyin pozulmasına görə cərimələr müəyyən edilib. Belə ki, aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması, dövlətə dəyən zərərin ödənilməsi və şəxslərin məsuliyyətə cəlb edilməsi məqsədilə kənar dövlət maliyyə nəzarətinin obyektlərinə və nəzarət tədbirinin predmeti ilə əlaqədar aidiyyəti tərəflərə göndərilmiş Hesablama Palatasının qərarlarının əsassız icra edilməməsinə görə vəzifəli şəxslər 300 manatdan 1000 manatadək məbləğdə cərimə edilir. Layihə müzakirələrdən sonra səsverməyə çıxarılaraq qəbul edildi.

"Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Dövlət rüsumu haqqında", "Baytarlıq haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi də (birinci oxunuş) təsdiqləndi.

Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsinin müzakirəsi zamanı bildirildi ki, dəyişiklik Azərbaycanda fəaliyyət göstərən banklara müddətli zəmanət müqaviləsi əsasında azı 100 min manat məbləğində pul vəsaiti qoyan əcnəbiyə ölkədə yaşamaq icazəsinin verilməsi və digər güzəştlərlə bağlıdır. Məcəllənin 45-ci maddəsinə (Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verildiyi hallar) edilən əlavəyə əsasən, Azərbaycanda fəaliyyət göstərən banklara müddətli zəmanət müqaviləsi əsasında azı 100 min manat məbləğdə pul vəsaiti qoyan əcnəbiyə ölkədə yaşamaq icazəsi verilir.

Banka müddətli əmanət müqaviləsi əsasında pul vəsaiti qoymaqla Azərbaycan ərazisində müvəqqəti yaşamaq üçün icazə alan şəxslərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən 3 iş günü müddətində aidiyyəti banka göndərilir. Həmin siyahıda göstərilən şəxslərin müddətli əmanətinin məbləği azaldılaraq 100 min manatdan aşağı düşdükdə və ya əmanət müqaviləsinə xitam verildikdə bank bu barədə müvafiq icra hakimiyyəti orqanına 3 iş günü müddətində məlumat verir.

"Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş) məlumat verən komitə sədri Əli Hüseynli dedi ki, dəyişiklik Azərbaycan ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin verilməsinə və müddətinin uzadılmasına görə rüsumları nəzərdə tutur.

Layihəyə əsasən, əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsi 10 gün iş günü müddətinə verildikdə 3 ayadək 700, 6 ayadək 900, 1 ilədək 1400, 15 iş günü müddətinə verildikdə 3 ayadək 500, 6 ayadək 700, 1 ilədək 1200, 20 iş günü müddətinə verildikdə 3 ayadək 350, 6 ayadək 600, 1 ilədək 1000 manat rüsum ödəniləcək.

Layihə səsverməyə çıxarılaraq qəbul olundu.

İclasda həmçinin "Kredit ittifaqları haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" və "Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihələri də (birinci oxunuş) təsdiqləndi.

İclası bağlı elan edən Milli Məclisin Sədri Oqtay Əsədov diqqətə çatdırdı ki, gündəlikdəki bir məsələ - "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası qanununun layihəsi parlamentin mayın 31-də keçiriləcək yaz sessiyasının sonuncu iclasında müzakirəyə çıxarılacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

# Bakıda Gürcüstanın milli bayramı qeyd edilib





Gürcüstanın Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Müstəqillik Günü münasibətilə mayın 30-da rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, qəbulda əvvəlcə Azərbaycanın və Gürcüstanın Dövlət himnləri səsləndirilib.

Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze qəbulda çıxış edərək ölkəsinin müstəqilliyinin tarixindən danışıb. İki ölkə arasındakı əlaqələrdən danışan səfir bildirib ki, Azərbaycan ilə Gürcüstan arasındakı strateji münasibətlər yalnız regional layihələrlə məhdudlaşmır. İki ölkə beynəlxalq arenada da yaxın münasibətlərə malikdir.

Səfir deyib ki, Gürcüstan dövlət müstəqilliyini möhkəmləndirir, iqtisadiyyatını inkişaf etdirir, azad və demokratik cəmiyyət qurur. Bu proseslərdə Gürcüstanın Azərbaycanla əməkdaşlığının əhəmiyyətinə toxunan diplomat xalqlarımızın qədim dostluq ənənələrinə malik olduğunu vurğulayıb.

Milli Məclisin Sədri Oqtay Əsədov əlamətdar bayram münasibətilə Prezident İlham Əliyevin adından Gürcüstan xalqını təbrik edib. Sədr bildirib ki, iki xalqın taleləri oxşardır. Hər iki xalq eyni tarixi dövrdə müstəqillik əldə edib. Gürcüstan və Azərbaycan yaxın ölkələr olmaqla bərabər, həm də strateji tərəfdaşlardır. Həyatın bütün sahələrində münasibətlərimiz inkişaf edir. Reallaşdırılan enerji layihələri xalqlarımızın gələcək rifahını şərtləndirir. Ölkələrimiz arasında münasibətlər qarşılıqlı surətdə inkişaf etdirilir. Hər iki ölkənin parlamentlərində dostluq qrupları var. Beynəlxalq təşkilatlarda da hər iki ölkənin deputatları eyini mövqedən çıxış edir. Hər iki ölkə bir-birinin ərazi bütövlüyünü dəstəkləyir.

Milli Məclisin Sədri əmin olduğunu bildirib ki, iki ölkə arasında münasibətlər bundan sonra da xalqlarımızın rifahı naminə inkişaf edəcək.

Tədbir bədii hissə ilə davam edib.

Qəbulda rəsmi şəxslər, Milli Məclisin deputatları, xarici ölkələrin Bakıdakı səfirləri, beynəlxalq təşkilatların təmsilçiləri, kütləvi informasiya vasitələrinin, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

# Polşa Prezidenti Andjey Duda Azərbaycana rəsmi səfərə gəlib



Polşa Respublikasının Prezidenti Andjey Duda mayın 30-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Polşa Respublikasının Prezidenti Andjey Dudanı hava limanında Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Nadir Hüseynov və digər rəsmi şəxslər qarşıladılar.

# İlham Əliyevin qurduğu Azərbaycan

*Əvvəli 1-ci səh.*

## İlham Əliyev, Azərbaycan və bir milyard insan...

Yuxarıda toxunduq: dünyanın dörd bir tərəfindən bir milyarda yaxın insan dünən səhərədək ölkəmiz, xalqımız, paytaxtımız barədə müsbət rəyə, emosiyaya sahib oldu.

Bilməyənlər də bildi ki, Azərbaycan və Bakı yaşayası, səfər ediləsi, heyran olunası məkandır!

İndiyədək duymayanlar da şahid oldu ki, azərbaycanlılar mədəni, müasir, işgüzar təfəkkürə sahib, şən, mehriban xalqdır, onlarla dostluq etmək olar!

Dünən dünyanın demək olar ki, bütün telekanallarında, qəzetlərində və internet portallarında Azərbaycanın və Bakının adı çəkildi!

Bundan böyük reklam, təşviqat ola bilərmi?!

Amma bir məqama da nəzər salaq: bu KİV-in 99 faizində İlham Əliyevin adı çəkilmədi!

Bu uğurlarda, nailiyyətlərdə onların təminatçısı xatırlanmadı!

Avroliqanın finalının məhz Bakıda keçirilməsinin əsas təşəbbüsçüsü yad edilmədi!

Belə də olmalıdır - çünki İlham Əliyev belə istəyir və belə də edir!

İlham Əliyev bu fürsəti də, bu imkanı da, həmişə olduğu kimi, yenə də məhz tarixinin ən qüdrətli dövrünü yaşatdığı Azərbaycanının təbliğinə yönəltdi!

İlham Əliyev Azərbaycan adı, şanı, sözü olan yerdə nə vaxt şəxsi mənafeyini düşündü ki?!

Bu, yalnız təvazökarlıq deyil, həm də İlham Əliyev dəyərləridir!..

Onun üçün reklamın da, təbliğatın da bir ünvanı var: Azərbaycan!..

İlham Əliyev Azərbaycana yönəlmiş bütün məkirlərə, rəzilliklərə, yalanlara qarşı yalnız lider tək yox, həm də əsl kişi kimi sinə gərir.

Yaman işdə öndədir, yaxşı işdə arxada!

## Qazanan Azərbaycandır!

Sözümüz aylardır İlham Əliyevə qarşı yeni şər cəbhəsi açmış dünya erməniliyinə yox, onların buyruq qullarına - "sapı özümüzdən olan baltalara"dır: İlham Əliyev öz ismini bir yerdə də çəkmədən Azərbaycana növbəti möhtəşəm nailiyyət yaşatdı, xalqımızın və dövlətimizin adını bu dəfə də bir milyard insana yenidən xatırlatdı.

Bu tədbirdən İlham Əliyev, - hər cür bədxahlığı, yalanı yönəltdiyiniz lider, - öz nüfuzunu möhkəmləndirmək, reytinqini yüksəltmək üçün yararlandımı? Əsla, yox!

Bəs Azərbaycan nə itirdi?!

Azərbaycan nə qazandı?!

İtirdiyi heç nədir, qazandığı hər şeydir!

Bəs sizlər nə itirdiniz, nə qazandınız? Ritorik sualdır, bilməyənmi var?!

Amma qazandığınız 2-3 min avro, yaxud 4-5 min dollar müqabilində itirdiyiniz dəyərlər sizi bu xalqa, dövlətə bağlayan son tellər idi ki, onları da birdəfəlik qopartdınız!

Qazanan Azərbaycandır!

Qazanan Azərbaycandırsa, demək qazanan həm də İlham Əliyevdir!

İlham Əliyevin qazandıqları isə misilsizdir və onlara elə son üç günün timsalında baxaq.

*Dənizkarı parkdakı adi gəzintinin xalq tərəfindən əzəmətli, izdihamlı görüşə çevrilməsi və Olimpiya stadionunda on minlərin əllərində üçboyalı bayrağımızla izhar etdikləri Lider sevgisi...*

*Bu məmləkətdə Azərbaycana sevgi ilə İlham Əliyev məhəbbəti nə vaxtdandır eyni mahiyyət kəsb edir...*

*Bu sevgi seli, əslində, həm də minnətdarlıq, şükranlıq dalğasıdır!..*

*Bir daha təşəkkürlər, cənab Prezident!..*

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

# Donald Trampdan İlham Əliyevə növbəti dəstək

*Əvvəli 1-ci səh.*

*Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri və "Cənub qaz dəhlizi" təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində Sizin liderliyinizi dəyərləndirirəm".*

Prezident İlham Əliyevin ABŞ rəhbərliyi ilə qarşılıqlı hörmətə və etimada əsaslanan əlaqələri var. Yuxarıdakı fikirlər də təsdiq edir ki, ABŞ Prezidenti İlham Əliyevi etibarlı tərəfdaş, dünya səviyyəli siyasi lider kimi qəbul edir. Donald Trampın sözləri həm də ondan xəbər verir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət dövlətimizin və xalqımızın milli maraqlarını layiqincə təmin edərək dünya miqyasında böyük ehtiramla izlənilir. ABŞ Pezidenti Azərbaycanla əvvəlki dönəmdə formalaşmış əməkdaşlıqdan təkcə məmnunluğunu ifadə etməklə kifayətlənmir. Həm də tərəfdaşlığımızın gələcək illərdə də inkişaf etməsini səmimiyyətlə arzulayır. Bu da səbəbsiz deyil. Çünki ABŞ rəhbərliyi Azərbaycanın Cənubi Qafqazın lider dövləti olduğunu qəbul edir, olduqca strateji və beynəlxalq maraqların toqquşduğu bir coğrafiyada yerləşən ölkəmizin yeritdiyi müstəqil siyasəti görür.

## ABŞ Azərbaycanın qlobal və regional miqyaslarda sabitləşdirici rolunu etiraf edir

Mayın 29-da Donald Tramp İlham Əliyevə növbəti - 5 gün ərzində ikinci təbrik məktubu ünvanladı. Bu dəfə ABŞ Prezidenti Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin keçirilməsinin 26-cı ildönümü ilə əlaqədar ən xoş arzularını çatdırdı. Məktubda deyilir: *"Azərbaycan özünün tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmamışdır. "Cənub qaz dəhlizi" daxil olmaqla, Azərbaycanda hasil olunan neft və qaz dünya enerji bazarlarında sabitliyi artırmaqda davam edir. Türkmənistan və Şərqi Aralıq dənizi hövzəsi ölkələri kimi digər potensial təchizatçılarla tərəfdaşlıq quraraq Azərbaycan daha böyük liderlik rolunu oynaya bilər. Ölkənizin uğurlarını genişləndirməyin əsl vaxtıdır. Amerika Birləşmiş Ştatları xarici sərmayələrin cəlb edilməsi və innovasiyaların təşviqinə xidmət edəcək iqtisadi islahatların davam etdirilməsində səylərinizi dəstəkləyir. Azərbaycanın iqtisadi uğuru bütün regiona sabitliyin gətirilməsinə yardım edəcəkdir".*

Beləliklə, ABŞ Prezidentinin növbəti məktubunda yer alan fikirlər Azərbaycanın inkişafının, beynəlxalq enerji məsələrindəki aparıcı mövqeyinin və ölkəmizin bu sahədəki liderliyini dünyanın fövqəldövlətinin rəhbərliyi səviyyəsində dəyərləndirilməsidir. Eyni zamanda, ABŞ Prezidenti məhz Azərbaycanın bölgədəki sabitləşdirici rolunu da etiraf edir. Bu o deməkdir ki, Azərbaycanın yürütdüyü siyasət ABŞ tərəfindən dəstəklənir.

Bütövlükdə Donald Trampın məktubları Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlarını artıraraq beynəlxalq miqyasda söz sahibinə çevrilməsinin beynəlxalq səviyyədə etirafıdır. Bəli, Prezident İlham Əliyevin yeni dünya sisteminin müasir çağırışlarına cavab verən siyasi kursu Azərbaycanı regionun lider dövlətinə çevirməklə yanaşı, beynəlxalq aləmdə ölkəmizi etibarlı tərəfdaş kimi tanıdıb. Azərbaycan özünün müstəqil siyasi kursuna müvafiq olaraq yaxın qonşu və uzaq dövlətlərlə səmərəli əlaqələrə, qarşılıqlı faydalı münasibətlərə malikdir. Bu münasibətlər bəzi ölkələrlə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Prezident İlham Əliyevin yürütdüyü siyasətin mayasında milli və dövlət maraqlarımızın təmin olunması, ölkənin inkişafı və mövqelərinin dünyada möhkəmləndirilməsi dayanır. Azərbaycanın hazırkı vəziyyəti göstərir ki, bu siyasət öz məqsədinə inamla çatır. Bu siyasətin nəticəsində əldə olunan uğurlu nəticələr isə ABŞ-ın timsalında dünyanın böyük güclərinin etiraf etdiyi reallıqdır. ABŞ rəhbərliyi Azərbaycanın Cənubi Qafqazın lider dövləti olduğunu qəbul edir, olduqca strateji və beynəlxalq maraqların toqquşduğu coğrafiyada yerləşən ölkəmizin yeritdiyi müstəqil siyasəti görür. Donald Tramp həm də onu qəbul edir ki, bu ərazilərdə iqtisadi maraqları olan dövlətlər özlərinin bütün addımlarını Azərbaycanın maraqlarını nəzərə almaq şərti ilə atırlar.

ABŞ Prezidentinin Azərbaycana strateji tərəfdaşlıq prizmasından yanaşması respublikamızın bölgədəki üstün mövqeyini göstərir. Bu, Azərbaycan dövlətinin həyata keçirdiyi müstəqil siyasətin dünyanın güc mərkəzləri və böyük ölkələri tərəfindən hörmətlə qarşılanmasının və qəbul edilməsinin əyani təsdiqidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bakıda 26-cı Beynəlxalq “Xəzər Neft və Qaz” konfransı keçirilir

Mayın 30-da Bakıda 26-cı Beynəlxalq “Xəzər Neft və Qaz” konfransı işə başlayıb. AZƏRTAC xəbər verir ki, konfransdakı çıxışında Energetika naziri Pərviz Şahbazov ümummilli lider Heydər Əliyevin neft strategiyasının başlanğıcı ilə eyni vaxta təsadüf edən “Xəzər Neft və Qaz” sərgi-konfransının neft sənayemizin yeni mərhələdə inkişafına dünyanın diqqətini cəlb edən birinci tədbir kimi mühüm rol oynadığını bildirib.




Deyib ki, 26 il əvvəl Azərbaycan bu sərgi-konfransla öz enerji potensialını dünyaya tanıtmağa çalışırdısa, bu gün strateji tərəfdaşlığın, beynəlxalq inteqrasiyanın və enerji təhlükəsizliyinin etibarlı təminatçısı missiyasını təqdim edir.

Nazir dünya enerji bazarında cərəyan edən proseslərə toxunaraq ölkənin enerji sektorunun yeni çağırışlara uyğun inkişafından da danışıb. Bildirib ki, 2014-cü ilin ikinci yarısından bugünə qədər neft bazarında qeyri-sabitlik müşahidə olunur. “OPEC plus” formatında bazarda dəyişən vəziyyətə uyğun çevik tənzimləmə tədbirlərinə baxmayaraq, qeyri-sabitlik hələ də qalmaqdadır. Hazırda neftin 70 ABŞ dollar/barel ətrafında qərarlaşan qiyməti qənaətbəxşdir.

“Bununla belə, həm istehsalçılar, həm də istehlakçıların maraqlarına uyğun qiymət sabitliyinin və bu məqsədlə tələb-təklif balansının qorunub saxlanılması ehtiyatlı düşünülmüş addımlar atılmasını zəruri edir. Mövcud iqtisadi və siyasi amillərin təhlili də göstərir ki, hazırda tələb-təklif tarazlığı üçün başlıca meyar kommersiya meyarıdır. Belə ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində neft ehtiyatları son 5 ilin orta göstəricilərindən çoxdur. Həmçinin təşkilatdan kənar ölkələr, o cümlədən ABŞ son illər şist nefti hesabına əldə etdiyi hasilat göstəriciləri ilə ənənəvi neft hasilatçılarını geridə qoyub. Buna görə də “OPEC plus” çərçivəsində əldə edilmiş razılığın bu ilin aprelində 168 faiz yerinə yetirilməsi, üstəlik razılaşmadan kənarda qalan bir sıra OPEC ölkələrində hasilatın azalması, qlobal neft bazarında ticarət məhdudiyyətlərinə və geosiyasi qeyri-sabitliyə baxmayaraq, neft tədarükündə çatışmazlıq və bundan irəli gələn yüksək qiymət dəyişikliyi müşahidə olunmur”, - deyə nazir qeyd edib.

P.Şahbazovun sözlərinə görə, razılaşma çərçivəsində hasilatda gündəlik təxminən 2 milyon barellik azalma, bazardakı artıq təklifi tam kompensasiya edə bilməyib: “Buna görə də hazırda “OPEC plus” ölkələri qarşısında duran prioritet məsələ kommersiya neft ehtiyatlarını müvafiq səviyyəyə çatdırmaqdır. Bu, qlobal tələbatla bağlı müşahidə olunan risklərdən sığortalanmaq üçün də əhəmiyyətlidir”.

Nazir, həmçinin deyib ki, ötən il neftin qlobal istehlakında artım 1,4 faiz olsa da, bu il dünyada neftə gündəlik tələbatın 1,2 milyon barelə qədər azalacağı proqnozlaşdırılır: “Ötən il dünyada enerjiyə tələbatın son illərdə ən yüksək səviyyədə olmasına baxmayaraq, Avropada enerjiyə tələbat xüsusilə də bərpaolunan enerjidən istifadənin genişlənməsi və enerji səmərəliliyi nəticəsində azalıb. 2050-ci ilədək neft və qazın ümumi idxalındakı nisbəti 55 faizdən 20 faizə düşəcək. Hazırda ABŞ və Çin arasındakı ticarət mübahisələri də qlobal iqtisadi inkişafa təsir edir və neftə tələbatı azaldan amil kimi nəzərdən keçirilir. Bütün bunlar isə göstərir ki, bazarda qiymətlərin sabitliyi üçün hasilat vasitəsilə tənzimləmə əsas nailiyyətdir”.

O bildirib ki, ötən 23 ildə ölkə iqtisadiyyatına 263 milyard dollar investisiya yatırılıb. Bu vəsaitin 100,6 milyard dolları məhz neft sektoruna yönəldilib: “Bu yaxınlarda 6 milyard dollarlıq “Azəri-Mərkəzi-Şərqi” layihəsinin təsdiqlənməsi ilə indiyədək təxminən 485 milyon ton neft və 158 milyard kubmetr qaz hasil olunan və 36 milyard dollardan çox sərmayə qoyulan “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun işlənməsində ikinci mərhələyə başlanılıb”.

Energetika naziri, həmçinin XXI əsrdə qazın enerji resursu kimi ön plana çıxmasının mənbə və marşrutların şaxələndirilməsi və enerji təhlükəsizliyi kimi məsələlərin də əhəmiyyətini artırdığını deyib və bu kontekstdə “Cənub qaz dəhlizi”nin əhəmiyyətindən danışıb. Onun sözlərinə görə, “Cənub qaz dəhlizi” ilə bağlı görülmüş işlər artıq öz nəticələrini verir: “TANAP-la indiyə kimi Türkiyəyə 1,8 milyard kubmetr Azərbaycan qazı nəql olunub. “Şahdəniz” yatağından qaz hasilatının cari ildə ötən illə müqayisədə 6 milyard kubmetr, 2020-ci ildə isə 2018-ci ilə görə 8,5 milyard kubmetr artacağı, beləliklə də 2020-ci ildə ölkədə ümumi qaz istehsalının 40 milyard kubmetri ötəcəyi gözlənilir”.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev artıq ənənəvi olaraq, 26-cı dəfə keçirilən konfransın Azərbaycanın regionlararası energetika layihələrinin həyata keçirilməsi istiqamətində apardığı birgə fəaliyyətlər üçün effektiv kommunikasiya platforması olduğunu deyib. Bildirib ki, aparıcı beynəlxalq şirkətlərlə olan işgüzar əlaqələr hər il daha yeni səviyyəyə qalxır: “Əminəm ki, builki konfrans da gələcək layihə və işlərin planlaşdırılması baxımından faydalı olacaq”.

R.Abdullayev qeyd edib ki, Azərbaycan xalqı ölkəmizin tarixində mühüm strateji rol oynamış “Əsrin müqaviləsi”nin imzalanmasının 25-ci ildönümünü qeyd edəcək: “Dövlət müstəqilliyimizin ilk illərində, olduqca ağır geosiyasi şəraitdə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin gərgin səyləri nəticəsində imzalanmış bu müqavilə Xəzər dənizi hövzəsində beynəlxalq əməkdaşlıq üçün əlverişli zəmin yaradıb, regionun enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişib. Müqavilə çərçivəsində Xəzərin Azərbaycan sektorundakı dərinsulu yataqların işlənilməsi üçün ölkəyə zəruri texnologiyalar, müasir istehsalat üsulları cəlb edilib, kəşfiyyat, hasilat, qazma, neft-qaz emalı və kimyası, informasiya texnologiyaları, insan resursları - bir sözlə, bütün sahələr üzrə innovativ metodlar tətbiq edilib.

“1994-cü ilin sentyabrında həmin kontraktın imzalanması bu gün müstəqil Azərbaycanın inkişafını böyük dərəcədə təmin edib. Bu kontraktdan əldə edilən gəlirlər ölkəmizin bütün sahələrində özünü büruzə verir. Ölkə sənayesi müasir tələblər səviyyəsində modernizə edilib, yeni istehsalat sahələri və iş yerləri yaradılıb, qeyri-neft sektoru gücləndirilib. Zəngin tarixə malik neft-qaz sənayemiz öz inkişafının yeni, daha yüksək mərhələsinə qədəm qoyub. Nəticədə, bu gün həyata keçirdiyimiz regional və qlobal birgə layihələrdə bütün istehsalat, inşaat və quraşdırma işləri ölkə daxilində, SOCAR və digər yerli müəssisələr tərəfindən icra olunur”, - deyə SOCAR-ın prezidenti vurğulayıb.

“Azəri-Çıraq-Günəşli”nin dünya səviyyəli nəhəng yataqlar bloku olduğunu deyən R.Abdullayev bildirib: “25 il əvvəl onun ehtiyatları 500 milyon ton civarında təxmin edilirdisə, bu gün həmin həcm çıxarıldıqdan sonra yataqda ən azı bir o qədər də karbohidrogen ehtiyatlarının qaldığı məlumdur. Layihənin bütün tərəfdaşları bu yatağın işlənməsində iştiraklarından məmnundur və onun böyük gələcəyi olduğuna inanırlar. Biz bu inamımızı hələ “Əsrin müqaviləsi” yekunlaşmadan, 2017-ci ilin sentyabrında “AÇG”nin 2049-cu ilin sonuna qədər birgə işlənməsinə dair yeni sazişin imzalanması ilə bir daha təsdiq etmişik. Bu yeni investisiya sazişi xarici tərəfdaşlarımızın Azərbaycana göstərdikləri yüksək etimadın təzahürüdür. Həm investor, həm də kontraktor şirkətləri ilə əməkdaşlığımız sağlam təməllər, qarşılıqlı faydalı maraqlar üzərində qurulub və əminəm ki, hələ uzun illər davamlı inkişaf edəcək”.

SOCAR-ın prezidenti qeyd edib ki, beynəlxalq aləmdə Avropanın ən böyük enerji və infrastruktur layihəsi kimi diqqət mərkəzində olan “Cənub qaz dəhlizi” çərçivəsində qazanılan uğurlar bunun daha bir təzahürüdür: “Ötən il biz Azərbaycanın təşəbbüsü və liderliyi ilə iki qitədə və bir neçə ölkədə həyata keçirilən bu möhtəşəm meqalayihənin 4 seqmentindən 3-nü - “Şahdəniz-2”, Cənub Qafqaz Kəmərinin genişləndirilməsini və TANAP layihəsinin birinci hissəsini uğurla başa çatdırdıq. Artıq təbii qazın Xəzər dənizindən Avropaya nəql olunmasının bir addımlığındayıq. İnanırıq ki, Azərbaycan perspektivli Avropa qaz bazarında artan tələbatla mövcud təchizat arasında yaxın illərdə yaranacaq boşluğun aradan qaldırılmasına öz töhfəsini verəcək və bütün hazırkı qaz təchizatçıları ilə bərabər bu bazarda özünə layiqli yer tutacaq”.

Onun sözlərinə görə, ilkin mərhələdə “Cənub qaz dəhlizi”nin resurs mənbəyini dünyanın ən böyük qaz-kondensat yataqlarından biri olan “Şahdəniz” yatağından çıxarılacaq qaz həcmləri təşkil edəcək. Lakin dəhlizin layihələndirilməsi zamanı Xəzərin Azərbaycan sektorunun qaz-kondensat ehtiyatları ilə zəngin olması, böyük imkanların mövcudluğu da nəzərə alınıb. Bu imkanları reallaşdırmaq məqsədilə yeni yataq və sahələrdə xarici tərəfdaşlarla birgə işləri məqsədyönlü şəkildə davam etdiririk.

SOCAR-ın prezidenti karbohidrogen ehtiyatları 350 milyard kubmetr qaz, 45 milyon ton kondensat həcmində qiymətləndirilən “Abşeron” yatağı üzrə görülən işlərdən, “Qarabağ” yatağının neft və qaz ehtiyatları ilə bağlı gözləntilərdən söhbət açıb. Deyib ki, “Abşeron” və “Qarabağ” yataqlarından ilk məhsulun 2021-2022-ci illərdə əldə olunması gözlənilir: “Ümid” yatağında ikinci özülün inşası, “Babək” strukturunun kəşfiyyat işlərinə başlanılması və müvafiq infrastrukturun tikintisi planlaşdırılmış layihə proqramı üzrə davam etdirilir. Növbəti mərhələdə “Əşrəfi”, “Dan ulduzu”, “Aypara”, “Şəfəq-Asiman” və Abşeron yarımadası ətrafında dayaz sulu sahələrdə də axtarış-qazma işlərinə başlanması nəzərdə tutulur.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz isə deyib ki, BP 27 ildir Xəzər regionundadır: “Bu müddət ərzində biz maraqlı tərəflər və tərəfdaşlarımız ilə sıx əməkdaşlıq edərək həqiqətən də dünya səviyyəli hesab etdiyimiz bu layihələri uğurla reallaşdırmışıq. Bu il həmin layihələrdən biri olan AÇG layihəsinin 25 illiyidir. Ötən 25 il ərzində biz Azərbaycan hökuməti, SOCAR və tərəfdaşlarımızla birgə işləyərək dünyada dövlət sektoru ilə özəl sektoru birləşdirən ən uğurlu biznes tərəfdaşlıqlarından birini qurmuşuq. AÇG tərəfdaşları bu yaxınlarda “Azəri-Mərkəzi-Şərqi” layihəsinə sanksiya verib. Bu, gündəlik 100 min barelədək neft hasil etmək üçün layihələndirilmiş yeni dəniz platforması və qurğularını özündə cəmləşdirən 6 milyard dollar dəyərində olan işlənmə layihəsidir. Layihə çərçivəsində ilk hasilatın 2023-cü ildə əldə ediləcəyi və yatağın istismar müddəti ərzində 300 milyon barelədək neft hasil olunacağı gözlənilir”.

O, Azərbaycan təbii qazının “Şahdəniz-2” layihəsi, bu layihə çərçivəsində Azərbaycanda və Gürcüstanda genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri və Türkiyədə TANAP boru kəməri vasitəsilə regional bazarlara nəql edildiyini deyib. Bildirib ki, növbəti il Avropaya ilk qazın nəql edilməsi üçün TAP boru kəmərində işlər qrafikə uyğun şəkildə yekunlaşmağa doğru yaxınlaşır”.

“Cari ildə “Şəfəq-Asiman” üzrə birinci kəşfiyyat qazma işlərinin başlanacağını gözləyirik. “Şəfəq-Asiman” böyük qaz və kondensat perspektiv strukturudur. Hesab edirik ki, buradakı nəticələr uğurlu olarsa, o, miqyasına görə “Şahdəniz” yatağı qədər ola bilər. Bundan başqa, neftin əlverişli zonada yerləşdiyi Abşeron yarımadasının dayazsulu sahəsi mövcuddur. Bu ərazidə biz seysmik tədqiqat işlərini artıq başa çatdırmışıq və növbəti iki ildə seçilmiş 3 perspektiv sahədə üç kəşfiyyat quyusu qazmağı planlaşdırırıq. D230 bloku bizim üçün Xəzər dənizində digər bir kəşfiyyat sahəsidir. Bu blok AÇG yatağının şimalında yerləşən böyük və əlverişli neft imkanı təmin edir. Bu il həmin sahədə kəşfiyyat aparılmalı potensial strukturları müəyyənləşdirmək üçün seysmik tədqiqat aparmağı planlaşdırırıq və tədqiqatın nəticələri uğurlu olarsa, tez bir zamanda, yəni növbəti il artıq quyunun qazılması nəzərdə tutulur. İnanırıq ki, bu sahə AÇG yatağının işlənməsindən bu vaxtadək Azərbaycanda ən böyük neft işlənməsi ola bilər. “Şahdəniz” yatağının dərin perspektiv strukturlarını qiymətləndirmək üçün növbəti il bir sıra kəşfiyyat işləri planlaşdırırıq. Bu, mövcud işlənilən Şahdəniz yatağının altında yerləşən əlverişli qaz perspektiv strukturudur. Oradakı ehtiyatların potensialı trilyonlarla kubfut həcmindədir və 2020-ci ildə burada qazma işlərinə başlanılması planlaşdırılır. Beləliklə, bu, qaz üzrə daha çox variantlar yarada bilər, xüsusən də dünya səviyyəli “Cənub qaz dəhlizi” infrastrukturunun hazır olduğu bir dövrdə”, - deyə Q.Counz qeyd edib.

Konfransın ilk günündə İranın Neft nazirinin beynəlxalq məsələlər üzrə müavini Əmirhüseyn Zamaninin, Qaz İxrac Edən Ölkələrin Forumunun (GECF) baş katibi Yuriy Sentyurinin, “JOGMEC”in prezidenti Tomonobu Uçidanın, eləcə də “Nobel Upstream” şirkətinin icraçı direktoru Lari Beyts, SOCAR-ın vitse-prezidentlərinin çıxışları dinlənilib.

Neft-qaz sektorunun, eləcə də bu sektor ilə əlaqəli müxtəlif sahələrin rəhbərləri üçün də əsas platforma olan 2 günlük konfransda 30 ölkədən 600-dən çox nümayəndə iştirak edir.

---

26-cı Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində

# Qlobal əməkdaşlığın rəmzinə çevrilən tədbir

***Əvvəli 1-ci səh.***

Çünki cari ilin sentyabrında AÇG-nin tammiqyaslı işlənməsi üçün imzalanan möhtəşəm sazişin - “Əsrin müqaviləsi”nin imzalanmasının 25 ili tamam olacaq.





Builki sərgi Azərbaycanın, eləcə də bütün regionun həyatında tarixi hadisə sayılan bir sıra digər layihələrin də yubileyinə təsadüf edir. Məsələn, 20 il əvvəl “Şahdəniz”də böyük qaz və kondensat ehtiyatları olduğu təsdiqlənib. Keçən il bu vaxt “Cənub qaz dəhlizi”nin rəsmi açılış mərasimi keçirilib. Bundan az sonra TANAP istismara verilib. Bütün bu layihələr sərgidə öz əksini tapıb.

Beləliklə, Xəzər Neft və Qaz Sərgisi bir növ Azərbaycanın və regionun bu sahədəki uğurlarının salnaməçisinə də çevrilib. Məlum olduğu kimi, AÇG-nin işlənməsinin müddəti 2049-cu ilin sonunadək uzadılıb. Bu da yeni bir layihənin həyata keçirilməsini gündəmə gətirib. Həmin layihə çərçivəsində Xəzərdə, AÇG ərazisində növbəti platforma quraşdırılacaq.

“Azəri-Çıraq-Günəşli”nin dəniz və sualtı işlər üzrə layihə rəhbəri Anıl Şenol bu barədə belə dedi: “Hazırda iki yeni layihə üzərində işləyirik. Bunlardan biri qaz-lift layihəsidir. Aydındır ki, AÇG-dən hasilat davam etdikcə laylar boşalır. Ona görə də quyulara qaz və su vurulur ki, təzyiq sabitləşsin, yaxud yüksəlsin. Bu əməliyyatları platformalar arasında çəkəcəyimiz boru xətləri həyata keçirəcək. İkinci layihə isə tikiləcək yeni “Azəri Mərkəzi Şərqi” platforması ilə bağlıdır. Bununla əlaqədar sualtı bağlantıları həyata keçirən bir çox boru xətləri çəkiləcək.

A.Şenol neft-qaz sərgisinin yüksək səviyyədə təşkil olunduğunu da vurğuladı. O, bu tədbirdə birinci dəfədir iştirak edir. Çünki əvvəllər “MakDermott”, “Saypem” şirkətlərinin əməkdaşı kimi Asiya və Afrikada neft-qaz tikintisi ilə məşğul olub. BP şirkətində altı ildir ki, çalışır. Bir il yarımdır fəaliyyəti AÇG ilə bağlıdır. Deyir ki, sərgi pavilyonunu bircə dəfə gəzməklə neçə-neçə həmkarımla, dostumla rastlaşdım, çox məmnun qaldım.

“Bos Shelf” şirkətinin ictimai əlaqələr üzrə mütəxəssisi Əli Mustafayev də neft və qaz sərgisinin həmkarların işgüzar görüş məkanına çevrildiyini təsdiqlədi. Bildirdi ki, şirkət 2005-ci ildən bəri bu tədbirin daimi iştirakçısıdır:

- Biz bu tədbirdə imkanlarımızı nümayiş etdirə, yeni tərəfdaşlıq əlaqələri qura bilirik. İmkan və uğurlarımız çoxdur. Belə ki, “Bos Shelf” 2001-ci ildən Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) fəaliyyət göstərir. Bu, 100 faiz Azərbaycan şirkətidir və 2012-ci ildən BDÖZ-ün yeganə eksklüziv operatorudur. Biz beynəlxalq səviyyəli neft-qaz tikinti layihələrinin gerçəkləşməsində BDÖZ-ün geniş imkanlarından səmərəli istifadə edirik.

Xatırladaq ki, indiyədək “Bos Shelf” şirkəti BDÖZ-də “Azəri-Çıraq-Günəşli” platformalarının mühüm hissələrini hazırlayıb. 2013-2017-ci illərdə burada dünyamiqyaslı “Şahdəniz” yatağı üçün iki platformanın dayaq hissəsi inşa edilib. Bu, çox çətin və məsuliyyətli iş idi.

Bu gün “Bos Shelf” yenə də Xəzər dənizindəki layihələr üçün tapşırıqlar yerinə yetirir. SOCAR-ın “Qarabağ” qaz yatağında quraşdıracağı özülün sualtı dayağı inşa olunur. “TOTAL” şirkətinin “Abşeron” yatağı üçün nəzərdə tutduğu işlər həyata keçirilir. Bütün bunlar Azərbaycanın neft-qaz sektoruna mühüm töhfədir və “Bos Shelf”in əməkdaşları nailiyyətlərini sərgi pavilyonundakı ekspozisiyalarında nümayiş etdirməkdən haqlı olaraq qürur duyurlar.

Qeyd edək ki, bu il sərgidə dünyanın onlarca ölkəsini təmsil edən 300-dən çox şirkət iştirak edir. Onların arasında həm tədbirin daimi iştirakçıları, həm də debütantlar var. İştirakçıların ümumi sayının 24 faizini debütantların təşkil etməsi Xəzər Neft və Qaz Sərgisinə marağın getdikcə artdığını göstərir. Belə ki, bu il sərgiyə Çindən, Qazaxıstandan, Türkiyədən, Monakodan, Niderland Krallığından, Hindistandan və digər ölkələrdən yeni şirkətlər gəlib. Debütantlar arasında Azərbaycan şirkətləri də az deyil. Onlar sərginin daimi iştirakçıları ilə, ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Rusiya və digər ölkələrdən gəlmiş qlobal neft, qaz və energetika şirkətləri ilə yanaşı, özlərinin geniş çeşidli avadanlıqlarını, uniforma və digər məhsullarını, eləcə də xidmətlərini təqdim edirlər.

Sərgi iştirakçıları bir qayda olaraq əməkdaşlığı genişləndirmək, yeni tərəfdaşlar tapmaq, xüsusilə də Azərbaycanla işgüzar əlaqələr qurmaq, yaxud mövcud əlaqələri möhkəmləndirmək arzularını bildirirlər. Başqa sözlə, ölkəmizin yaratdığı beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq formatı yeni, daha mühüm mərhələyə qədəm qoyur. Bu formatın yaradılmasında 26-cı dəfədir Bakıda keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rolu və əhəmiyyəti danılmazdır.

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

---

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçilərinin 2019-cu ilin iyun ayında respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəli

**12 iyun 2019-cu il**

1. Masallı rayonu
2. Şəmkir rayonu
3. Balakən rayonu
4. İsmayıllı rayonu
5. Laçın rayonu

**20 iyun 2019-cu il**

1. Naftalan şəhəri
2. Göygöl rayonu
3. Ağcabədi rayonu
4. Zərdab rayonu
5. Siyəzən rayonu

**Qeyd:** qəbullar şəhər və rayonlarda saat 10:00-da başlayır.

---

# Kənd təsərrüfatı naziri Lənkəranda vətəndaşlarla görüşüb

Kənd təsərrüfatı naziri İnam Kərimov mayın 30-da Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Lənkəran, Astara və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Daha sonra nazir İnam Kərimov Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında yaradılan şəraitlə tanış olub, fermerlərə informasiya məsləhət xidmətinin göstərilməsində iştirak edən Aqrar İnkişaf Könüllülərinin bir qrupu ilə görüşüb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 58 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb.

# Azərbaycan və futbol qalib gəldi

*Əvvəli 1-ci səh.*









Digər maraqlı məqam ondan ibarətdir ki, 68 min 700 nəfər tamaşaçı tutumu olan Bakı Olimpiya Stadionu UEFA Avropa Liqasının 20 illik rekordunu yeniləyib. Oyuna stadionda tamaşa edən azarkeşlərin sayına görə (51 min 370 nəfər) isə bu, Avropada son 10 ildə üçüncü nəticədir. Bundan əlavə, ilk dəfə VAR (videonəzarət) sistemindən istifadəyə, oyun əlavə vaxta keçəcəyi təqdirdə dördüncü əvəzetməyə icazə verilirdi. İtaliyalı arbitr Canluka Rokkinin yüksək səviyyədə idarə etdiyi final qarşılaşmasının ən yaxşı futbolçusu görüşdə iki qol vurmuş Eden Hazard oldu.

Xatırladaq ki, iki il öncə UEFA İcraiyyə Komitəsi Avropa Liqasının 2018-2019-cu il mövsümünün final oyununun Bakı Olimpiya Stadionunda keçirilməsi barədə qərar qəbul etmişdir. Mötəbər yarışın kubok səyahətinə martın 9-da İsveçrənin Cenevrə şəhərində start verilmişdi. Sonralar İspaniyanın Sevilya, Almaniyanın paytaxtı Berlin, İngiltərənin paytaxtı London, İtaliyanın Milan şəhərində, Rusiyanın paytaxtı Moskva və Fransanın paytaxtı Parisdə, mayın 19-da Gəncədə, mayın 21-də isə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində nümayiş etdirilmişdir.

Paytaxt sakinləri və şəhərə gəlmiş on minlərlə əcnəbi turist üçün müxtəlif əyləncə zonaları yaradılmış, yaxın keçmişin ulduz futbolçuları ilə görüşlər təşkil edilmişdir. Silsilə tədbirlər çərçivəsində Dənizkənarı Bulvarda təşkil olunmuş azarkeş festivalında İtaliya millisinin sabiq qapıçısı Françesko Toldo, İngiltərə milli komandasının keçmiş hücumçusu Maykl Ouen avtoqraf paylamışlar.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət idman siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi sayəsində hazırda ölkəmiz dünyada idman ölkəsi kimi də tanınır. Son illər ölkəmiz bir çox mötəbər turnirlərə evsahibliyi edib. Bunlara misal kimi 17 yaşadək qadın futbolçular arasında dünya çempionatı, UEFA futzal kuboku, 17 yaşadək futbolçular arasında Avropa çempionatının final turniri, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" yarışlarını göstərmək olar.

UEFA Avropa Liqasının final oyununun böyük uğurla keçirilməsi bir daha Azərbaycanın iri beynəlxalq tədbirlərin, o cümlədən bütün dünyanın diqqət mərkəzində olan idman yarışlarını yüksək səviyyədə təşkil etmək bacarığını nümayiş etdirdi. Təsadüfi deyil ki, hazırda əksər ölkələrin KİV-i bu matçın təşkili ilə bağlı növbəti dəfə heyranlıqlarını ifadə edirlər. Məsələn, Rusiyanın news.ru portalı yazır: "Heç bir mübaliğə olmadan deməliyik ki, Bakıda keçirilmiş Avropa Liqasının final oyunu yüz faiz alındı və futbol tarixinə növbəti parlaq səhifə kimi daxil oldu".

Belə sitatlardan çox gətirmək olar. Görüşdən bir neçə saat əvvəl UEFA-nın prezidenti Aleksander Çeferinin dedikləri də maraqlıdır: "Dünyanın hər yerindən olan futbol azarkeşlərini həyəcanlandıracaq bu hadisə üçün Azərbaycanı və onun gözəl paytaxtını ziyarət etmək bizim üçün şərəfdir".

Eyni zamanda UEFA Avropa Liqasının final oyununun keçirilməsi ilə bir daha sübut olundu ki, Azərbaycan belə nəhəng tədbirləri təşkil etmək üçün müasir infrastruktura - idman komplekslərinə, xidmət sektoruna, təhlükəsizliyə və s. malik ölkədir. Hər hansı bir problemin baş verməməsi matçın yüksək səviyyədə təşkil olunduğunu aydın şəkildə nümayiş etdirdi.

Düzdür, hər dəfə ölkəmizdə mötəbər yarışların keçirilməsi ərəfəsində antiazərbaycançı qüvvələr baş qaldırır, qarayaxma və böhtan kampaniyasını işə salırlar. Lakin hər dəfə bədxahların cəhdləri boşa çıxsa da, onlar öz isterik haray-həşirlərindən əl çəkmirlər. Bu dəfə də belə oldu. Gah Azərbaycanda əcnəbilər üçün hansısa təhlükənin mövcudluğu, gah hotellərin və aviabiletlərin bahalığı kimi bəhanələr gətirilirdi. Sonra isə erməni kartı ortaya atıldı. "Arsenal"ın oyunçusu Henrix Mxitaryan və onun havadarları idmanı siyasiləşdirməyə başladılar. Azərbaycan hökumətinin onun təhlükəsizliyinə dəfələrlə təminat verməsinə baxmayaraq, Mxitaryan guya həyatı üçün qorxduğundan komandasına qoşulmadı və Bakıya gəlməkdən boyun qaçırdı. Onun bu məntiqsiz addımı sağlam düşüncəli insanlar tərəfindən qınandı. Məşhur futbolçular, veteran idmançılar bu hərəkətin yolverilməz olduğunu bildirdilər. Hətta bu günlərdə Bakıda keçirilmiş aerobika üzrə Avropa çempionatının rusiyalı erməni əsilli iştirakçıları Qarsevan və Duxik Canazyan Bakıda gözəl idman ab-havasının olduğunu, Milli Gimnastika Arenasında azarkeşlərin bütün idmançılara güclü dəstək verdiyini etiraf etdilər və Mxitaryanın hərəkətlərinə münasibət bildirdilər: "Düşünürük ki, idmanla siyasəti qarışdırmaq düzgün deyil. Biz onun yerinə olsaydıq, komandamızı dəstəkləmək üçün yanında olardıq".

Bəlkə də matç ərəfəsində "Arsenal"da Mxitaryan hoqqabazlığı baş verməsəydi, komanda oyuna daha yaxşı köklənər, acı məğlubiyyətə uğramazdı. İngiltərənin "Mançester Yunayted", "Everton" və "Mançester Siti" klublarının sabiq oyunçusu Andrey Kançelskis isə qorxaq erməni futbolçusuna öyüd-nəsihət, həm də məsləhət verib: "Sən kimdən qorxursan? Hansı siyasi münasibətlər? Sən futbol oynayırsan. Get, oyna. Bu, nə cəfəngiyyatdır?.. Bu, nə sirkdir? Futbol futboldur, siyasət deyil. Get, oyna, göstər ki, heç kimdən qorxmursan... Sənə heç kim toxunmayacaq. Əgər belə qorxursansa, özünə pampers al... Avropa Liqasını uduzsalar, onda günahkar Mxitaryan olacaq. Çünki o, Bakıya getmədi, komandasına kömək etmədi".

UEFA Avropa Liqası final oyununun yüksək səviyyədə keçirilməsi xaricdəki antiazərbaycançı qüvvələrin və onların daxildəki uzantılarının bütün iddialarını alt-üst etdi, başladıqları qarayaxma kampaniyası uğursuzluğa düçar olub heç bir effekt vermədi. Bu dəfə də Azərbaycan və idman qalib gəldi!

Başqa bir məqamı da qeyd etmək yerinə düşər. Azərbaycan UEFA Avropa Liqası final oyununu tələb olunan səviyyədə keçirməklə bir daha sübut etdi ki, gələcəkdə hər hansı beynəlxalq idman tədbirini, o cümlədən 2020-ci ildə Avropa futbol çempionatının dörd matçını da yüksək səviyyədə təşkil etmək bacarığına malikdir.

***Rizvan HİLALOĞLU, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"***

# Heydər Əliyev Fondu ilə İtaliyanın TechnipFMC şirkəti arasında əməkdaşlıq memorandumu çərçivəsində magistr proqramı təqdim edilib



Mayın 30-da Heydər Əliyev Fondu və İtaliyanın neft və qaz şirkəti-TechnipFMC arasında imzalanan əməkdaşlıq memorandumu çərçivəsində həyata keçiriləcək "Neft, qaz və neft-kimya sahəsində təhsil alan tələbələr üçün texnoloji biliklərin ötürülməsi üzrə magistr proqramı" layihəsinin təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu ilə İtaliyanın neft və qaz şirkəti-TechnipFMC arasında əməkdaşlıq memorandumu çərçivəsində neft-qaz sahəsində çalışan tələbələr üçün magistr proqramı üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsi tədbirlərinin keçirilməsi, elm, texnologiya və təhsil sahələrində birgə layihələrin icrası nəzərdə tutulur.

Sənədi Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və TechnipFMC şirkətinin prezidenti Marko Villa imzalayıb.

Layihə ilə bağlı təqdimat tədbirində Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Təhsil Nazirliyi, Dövlət Neft Şirkəti (SOCAR), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU), Bakı Ali Neft Məktəbi və digər təşkilatların nümayəndələri iştirak ediblər.

TechnipFMC şirkətinin prezidenti Marko Villa çıxış edərək imzalanan əməkdaşlıq memorandumunun əhəmiyyətindən danışıb. O qeyd edib ki, şirkət Azərbaycanla bu sahədə əməkdaşlığı davam etdirmək niyyətindədir: "Bizim şirkətimiz bu sahədə innovasiyaların tətbiqini dəstəkləyir. Biz Azərbaycanla nəqliyyat texnologiyası, innovasiyalar sahəsində əməkdaşlıq edə bilərik".

Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəisi Soltan Məmmədov təlim proqramının məqsədi barədə danışıb. O bildirib ki, bu proqram ölkənin təhsil, ətraf mühit və texnoloji sektorunun inkişafına töhfə verilməsi, texnologiya və sənaye innovasiyalarının azərbaycanlı tələbələrə və peşəkarlara ötürülməsi, onların bilik və bacarıqlarının təkmilləşdirilməsi istiqamətində mühüm layihələrdəndir. Bildirilib ki, memorandum çərçivəsində Azərbaycanda fəaliyyət göstərən müvafiq tədris müəssisələrinin bu layihəyə cəlb olunması nəzərdə tutulur. Magistr proqramı həm ölkə daxilində, həm də xaricdə həyata keçiriləcək.

TechnipFMC şirkətinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Luici Fiorentino şirkətin ölkəmizdəki fəaliyyəti barədə məlumat verib. O qeyd edib ki, TechnipFMC - dəniz səviyyəsindən aşağıda, quruda və dənizdə, eləcə də yerüstü texnologiyalar sahəsində EPC (Layihələndirmə, Satınalma və Tikinti) qlobal liderdir. Şirkət Azərbaycanda 1997-ci ildən fəaliyyət göstərir və burada "Şahdəniz 1" (TPG-500) üçün birinci platforma kimi çoxsaylı layihələr həyata keçirib. Bundan əlavə, TechnipFMC Azərbaycanda neft-kimya sahəsində yeganə lisenziya almış şirkət olaraq bir sıra layihələr hazırlayıb. Bunların sırasında SOCAR Azərikimya layihəsini qeyd etmək olar. Bu layihədə yeni krekinq sobaları və qaz emalı qurğusu qurulur. Həmçinin SOCAR GPC layihəsində həm qaz emalı, həm də neft-kimya buxarlı krekinq qurğusu da tam olaraq TechnipFMC-nin texnologiyaları əsasında layihələndirilib.

# Filarmoniyada xalq yazıçısı İsmayıl Şıxlının 100 illiyinə həsr edilmiş tədbir keçirilib






Mayın 30-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xalq yazıçısı İsmayıl Şıxlının 100 illiyi münasibətilə tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir Prezident İlham Əliyevin görkəmli ədibin 100 illik yubileyinin qeyd olunması haqqında imzaladığı müvafiq sərəncam əsasında hazırlanmış tədbirlər planına uyğun olaraq təşkil edilib.

Mərasimdə dövlət rəsmiləri, ədəbiyyat, mədəniyyət, incəsənət və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qonaqlar əvvəlcə filarmoniyanın foyesində İsmayıl Şıxlının həyat və fəaliyyətindən bəhs edən foto və əsərlərinin nümayiş olunduğu kitab sərgisi ilə tanış olublar.

Tədbirdə mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev dövlətimizin mədəniyyət və incəsənət, elm xadimlərinə olan diqqət və qayğıdan danışaraq Prezident İlham Əliyevin İsmayıl Şıxlının yubileyinin keçirilməsi haqqında sərəncamını xatırladıb. Bildirib ki, həmçinin bu il bir sıra ədiblərimizin yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalanması dövlətin ədəbiyyata, ədəbiyyat nümayəndələrinə münasibətini əks etdirir.

Vaqif Əliyev İsmayıl Şıxlının zəngin yaradıcılığından söhbət açaraq ədibin Azərbaycan ədəbiyyatına verdiyi töhfələrdən danışıb. Ədibin əsərlərində yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik obrazlar yaratdığını bildirib. Yaxın vaxtlarda "Ölən dünyam" əsəri rus dilində nəşr olunacaq.

Təhsil naziri Ceyhun Bayramov çıxış edərək İsmayıl Şıxlının Azərbaycan ədəbiyyatı tarixindəki mövqeyindən, zəngin bədii yaradıcılığından danışıb. Qeyd edib ki, görkəmli yazıçı əsərlərində Azərbaycan xalqının milli düşüncə tərzini, onun psixologiyasını, dünya görüşünü əks etdirməyə xüsusi diqqət yetirib. Bununla yanaşı, o, bir vətəndaş kimi də Azərbaycanın ən çətin günlərində sözünü deməkdən çəkinməyib. 1990-cı ilin Qanlı yanvar hadisələri zamanı əsl vətəndaş, ziyalı mövqeyi nümayiş etdirib.

Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar yaradıcılığa təzə başlayan gənclərin həmişə dayağı olmuş İsmayıl Şıxlını böyük yazıçı və sözübütöv, mərd, cəsarətli bir insan kimi xarakterizə edib. Deyib ki, İsmayıl Şıxlı XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir.

Milli Məclisin deputatı, xalq yazıçısı Elmira Axundova, xalq yazıçısı Çingiz Abdullayev, xalq şairi Ramiz Rövşən İsmayıl Şıxlı haqqında xatirələrini bölüşüblər. Bildiriblər ki, o, öz təbiiliyi, kişi xarakteri, mərdliyi və özünəməxsusluğu ilə xalq arasında böyük nüfuz qazanıb. İsmayıl Şıxlı bu gün də bizim üçün əsl vətəndaş, əsl kişi, əsl ziyalı nümunəsidir.

Sonra görkəmli yazıçının həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub. Əsərlərindən parçalar səsləndirilib.

Sonda yazıçının ailəsi adından oğlu Azərbaycan Respublikasının Prezidentinə, tədbirin təşkilatçıları və iştirakçılarına İsmayıl Şıxlı yaradıcılığına verilən dəyərə görə təşəkkürünü bildirib.

# XİN: "Ermənistan baş nazirinin idmanı siyasiləşdirməsi onun üzləşdiyi problemləri pərdələmək cəhdlərindən irəli gəlir"

Ermənistanın baş naziri N.Paşinyan "Arsenal" futbol klubunun oyunçusu H.Mxitaryanla telefon söhbəti edərək onun UEFA Avropa Liqasının final oyununda Bakının irqçi mövqeyinə görə iştirak edə bilmədiyini deyib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu məsələyə münasibət bildirib.

Nazirliyin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayevanın açıqlamasında bildirilir ki, Ermənistan baş nazirinin özünə aid olmayan məsələlərə qarışaraq idmanı siyasiləşdirməsi, görünür, onun üzləşdiyi daxili problemləri bu kimi addımlarla pərdələmək cəhdlərindən irəli gəlir. Ermənistan kimi monoetnik dövlətin və qonşu Azərbaycanın ərazilərini güc tətbiq etməklə işğal edərək bu ərazilərdə zorakı etnik təmizləmə həyata keçirən, Xocalıda qanlı soyqırımı törədən bir ölkənin rəhbərinin irqçilikdən danışmağa heç bir haqqı yoxdur. Bu, hər hansı əxlaqa sığmır. Ermənistan baş nazirinə xatırladırıq ki, torpaqlarımızın erməni silahlı qüvvələrinin işğalı altında olmasına baxmayaraq, Azərbaycanda bu gün on minlərlə erməni yaşayır və ümumiyyətlə, ölkəmizdə müxtəlif dinlərin və millətlərin nümayəndələri hər zaman sülh və əmin-amanlıq şəraitində birgə yaşayıblar və yaşayırlar. Onu da qeyd edim ki, Ermənistanın böyük qısqanclıqla izlədiyi və hər vəchlə əsassız şəkildə gündəmə gətirdiyi Avropa Liqasının Bakıdakı final oyunu zamanı Azərbaycana səfər edən çoxsaylı əcnəbi pərəstişkarlar ölkədəki vəziyyətlə öz gözləri ilə tanış oldular. Necə deyərlər, yalan ayaq tutar, ancaq yeriməz.

# ABŞ Konqresinin əməkdaşları Milli Məclisdə olublar

Mayın 30-da Milli Məclisin Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə ABŞ Konqresinin ölkəmizdə səfərdə olan əməkdaşlarının görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Endryu Hudson, Devin Viser, Karson Middlton, Ryan Etington, Sara Miller, Sara Matar, Kennet Depyu, Jess von Stein iştirak ediblər.

Əvvəlcə qonaqlar parlamentin binası ilə tanış olublar, iclas salonunda Milli Məclisin plenar iclasının gedişini izləyiblər. Görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Səməd Seyidov qonaqlara Azərbaycan parlamentinin strukturu və tərkibi barədə məlumat verib.

Söhbət zamanı Azərbaycanda təhlükəsizlik məsələləri və Avroliqanın Bakıda keçirilmiş final oyunu diqqət mərkəzində olub. Yarışın yüksək səviyyədə təşkil edildiyi vurğulanıb. Dilindən, dinindən, siyasi baxışlarından asılı olmayaraq, ölkəmizə gələn istənilən turistin burada azad və rahat şəkildə gəzib-dolandığı qeyd edilib. "Arsenal"ın futbolçusu Mxitaryanla bağlı ermənilərin apardığı çirkin təbliğatın puça çıxdığı bildirilib. ABŞ Konqresi əməkdaşlarının nəzərinə çatdırılıb ki, ermənilər idmanı da siyasi alətə çevirməyə çalışırlar. Qonaqlara Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə danışan deputatlar Səməd Seyidov, Sevinc Fətəliyeva, Asim Mollazadə, Nəsib Məhəməliyev vurğulayıblar ki, Dağlıq Qarabağı və ətrafdakı 7 rayonu işğal etmiş Ermənistan həmin ərazilərdə etnik təmizləmə aparıb. Son 30 ildə işğalçılıq siyasəti yürüdən və soydaşlarımıza qarşı amansız cinayətlər törədən Ermənistan rəhbərliyi Azərbaycan torpaqlarını qaytarmaq niyyətində deyil. Ona görə də münaqişənin sülh yolu ilə həllinə imkan vermir, status-kvonu saxlamağa çalışır. Bu münaqişənin ədalətli həllində, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin de-fakto təmin olunmasında ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın dəstəyinə ciddi ehtiyac var.

Görüş zamanı Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri amerikalı qonaqları maraqlandıran suallara cavab veriblər.

# Heydər Əliyev Fondu Füzuli, Zərdab və Tərtərdə iftar süfrəsi təşkil edib

Heydər Əliyev Fondu tərəfindən islamın ən şəfqətli və müqəddəs ayı hesab edilən ramazan ayı münasibətilə Füzuli rayonunun Horadiz şəhərində iftar süfrələri açılıb.

Şəhid ailələri, Qarabağ əlilləri, oruc tutanlar, imkansız ailələr və dindarların iştirak etdiyi iftar mərasimində ramazan ayının fəzilətlərindən danışılıb, Qurani-Kərimdən ayələr oxunub, dualar edilib, şəhidlərin ruhu yad olunub.

Çıxış edənlər Prezident İlham Əliyevin rəhbərliyi və Birinci xanım Mehriban Əliyevanın dəstəyi ilə ölkəmizdə həyata keçirilən işlərdən, milli-mənəvi dəyərlərə göstərilən diqqət və qayğıdan danışıb, saflıq və mərhəmətin rəmzi olan bu ayda xalqımıza əmin-amanlıq, ruzi-bərəkət arzulayıblar. Bildirilib ki, Heydər Əliyev Fondu tərəfindən təşkil olunan iftar süfrələri ölkəmizdə hökm sürən milli-mənəvi həmrəyliyi, ənənəvi tolerantlığı və xalqımızın sıx birliyini nümayiş etdirir.

* * *

Növbəti iftar süfrələri mayın 29-da Zərdab və Tərtər rayonlarında açılıb.

İftar süfrələrində din xadimləri, şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsi əlilləri və imkansız ailələrdən olan insanlar, həmçinin N saylı hərbi hissənin əsgərləri iştirak ediblər.

Mərasimdə çıxış edənlər ölkəmizdə həyata keçirilən dövlət-din siyasətindən, milli-mənəvi dəyərlərə göstərilən diqqət və qayğıdan, tolerantlıq mühitinin qorunub saxlanmasından, ramazan ayının əhəmiyyətindən və fəzilətlərindən danışıblar.

Bildirilib ki, müqəddəs kitabımız olan "Qurani-Kərim"in nazil olduğu ramazan ayı dinimizdə uca və müqəddəs sayılan, insanları sülhə, həmrəyliyə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Ramazan ayında iftar süfrələrinin təşkil edilməsi cəmiyyətimizin vahidliyinin, ümumi amallar naminə ölkəmizdə dövlətlə din arasında sıx birliyin bariz nümunəsidir. Bu baxımdan Heydər Əliyev Fondu tərəfindən bölgələrdə iftar süfrələrinin açılması tədqirəlayiqdir.

Bu gün Azərbaycan dünya ölkələri üçün tolerantlıq nümunəsidir. Ölkəmizdə birlik və sabitlik hökm sürür, dini məbədlər təmir və bərpa olunur, islami və milli-mənəvi dəyərlər qorunur.

İftar süfrəsində, həmçinin Ali Baş Komandanın rəhbərliyi ilə bütün torpaqlarımızın tezliklə işğaldan azad olunacağına, o torpaqlarda da dini ayinlərin icra ediləcəyinə və iftar süfrələrinin açılacağına əminlik ifadə olunub.

İftar süfrəsi ətrafında on bir ayın sultanı olan ramazanın fəzilətlərindən danışılıb, bu ayda görülməsi vacib sayılan xeyirxah əməllərdən, savab işlərdən söz açılıb. Ölkəmizə əmin-amanlıq və sülh arzulanıb, torpaqlarımızın bütövlüyü uğrunda şəhid olanların ruhuna dualar oxunub.

***AZƏRTAC***

# XİN: "Ermənistan silahlı qüvvələri tərəfindən törədilən bu qanlı əməl təxribat xarakteri daşıyır"

Bu gün Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttinin Ağdam rayonu istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejimi kobud şəkildə pozulub və snayperdən açılan atəş nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu şəhid olub. Xüsusilə qeyd etmək istərdik ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin bölgəyə səfəri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən törədilən bu qanlı əməl təxribat xarakteri daşıyır və münaqişənin həlli üzrə aparılan danışıqları pozmaq məqsədinə xidmət edir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında yer alıb. Açıqlamada deyilir ki, işğalçı Ermənistan rəhbərliyinin sözdə münaqişənin həlli üzrə sülh şəraitinin yaradılması bəyanatlarının real və praktiki addımlarla müşayiət olunmadığını, əksinə, Ermənistanın təxribatçı fəaliyyəti ilə sülh danışıqlarına xələl gətirmək niyyətini açıq şəkildə nümayiş etdirən bu qanlı əməl qəti qəbuledilməzdir və danışıqlar prosesinə zərbə vurur.

Törədilmiş qanlı cinayətin bütün mümkün mənfi nəticələrinə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərindədir.

# REGİONLAR



# Göygöl rayonu daha gəzməli və görməli olur




Son illər Göygöl rayonunun iqtisadiyyatında əsaslı dönüş yaranmışdır. Nəticədə həm rayon mərkəzi, həm də kənd və qəsəbələrin siması tanınmaz dərəcədə dəyişmiş, insanların sosial həyat şəraiti xeyli yaxşılaşmışdır.









Bunu cari ilin birinci rübünün göstəriciləri də təsdiq edir. 3 ay ərzində iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 42 milyon 251 min manat olmuşdur. Rayonda fəaliyyət göstərən fiziki şəxslər tərəfindən məhsul istehsalı və xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 143,7 faiz artaraq 10 milyon manata çatmışdır.

Rayon iqtisadiyyatı yüksəldikcə abadlıq və quruculuq işləri də genişlənmişdir. Belə ki, ilk növbədə əsas kapitala qoyulan 2 milyon 879 min manat investisiyanın 2 milyon 682 min manatı tikinti-quraşdırma işlərinə yönəldilmişdir. Tikintisinə keçən il başlanılmış rayon statistika idarəsinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin yeni inzibati binalarının, eləcə də "Qafqaz" hotelinin tikintisi davam etdirilmiş, rayon mərkəzində yollar asfaltlanmış, mərkəzi stadionda təmir işləri aparılmış, bir çox evlərin dam örtüklərinin suötürücüləri təmizlənmişdir. Qızılqaya qəsəbəsində isə qanunsuz çəpərlər və yöndəmsiz binalar sökülərək ərazidə genişmiqyaslı abadlıq və quruculuq işlərinə başlanılmış, binaların dam örtükləri yenilənmiş, fasad hissələri təmir edilmiş, ərazidə 1000-ə yaxın ağac və gül kolları əkilmişdir. Hazırda qəsəbədə yenidənqurma işləri davam edir. Yeri gəlmişkən, rayonda ekoloji vəziyyəti yaxşılaşdırmaq məqsədilə yaşıllaşdırma işləri də aparılır. Meşə dolaylarında, yol kənarlarında 43 mindən çox ağac əkilmişdir.

Məlum olduğu kimi, Göygöl rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Rayonun kənd təsərrüfatı işçiləri keçən il cari ilin məhsulu üçün 8253,8 hektar sahədə payızlıq səpin aparmışlar. Ötən il qazanılan uğurlara görə 214 nəfərə 70 faiz güzəştlə dəyəri 226 min 732 manat olmaqla 521 ton mineral gübrə və 3338 litr kimyəvi preparat satılmışdır.

Əvvəlki illərdə olduğu kimi, cari ildə də heyvandarlığın inkişafında irəliləyiş qeydə alınmışdır. Hazırda rayonda 20,6 min baş qaramal, 159,8 min baş davar var. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur. Bu ilin birinci rübündə rayon üzrə 1542 tondan çox ət, 6495 ton süd, 4,3 milyon ədəd yumurta istehsal olunmuşdur. Həmçinin 234 baş malqara süni yolla mayalandırılmış, nəticədə 142 baş bala alınmışdır.

Bunlardan əlavə, rayonda mövcud əkin sahələrini su ilə təmin etmək üçün bir sıra işlər görülmüşdür. 49 subartezian quyusunda cari, 2-sində əsaslı təmir işləri aparılmış, qapalı boru şəbəkəsinin 1 kilometr, beton kanalların 2 kilometr hissəsi təmir edilmiş, daşqınların qarşısını almaq məqsədilə çay məcrasında 61 min kubmetr həcmində təmizləmə işləri görülmüş, rayon ərazisində 7 subartezian quyusunun qazılmasına başlanılmışdır.

Əhalinin məşğulluğunu təmin etmək və aztəminatlı ailələrin sosial müdafiəsini gücləndirmək üçünsə cari ildə 567 nəfər işaxtaran rayon Məşğulluq Mərkəzində qeydiyyata alınmış və onlardan 189 nəfəri münasib işlə təmin olunmuşdur. 175 nəfər işsiz "DOST İŞ Mərkəzi" MMC-də sosial işçi olaraq işə düzəlmişdir. Özünəməşğulluq Proqramı çərçivəsində rayonda işsiz və işaxtaran kimi qeydiyyata alınmış 16 nəfər təlim kurslarına cəlb edilmişdir. Yaxın vaxtlarda onların aktivlərlə təmin edilməsi nəzərdə tutulur.

Göygöl rayonunun iqtisadiyyatında turizm də əsas yerlərdən birini tutur. Hər il minlərlə yerli və xarici turisti qəbul edən rayonda hazırda yay mövsümünə ciddi hazırlıq işləri görülür. Bu məqsədlə istirahət mərkəzləri və hotellərdə turizm qəbulu ilə bağlı yoxlamalar aparılır, kənd turizmi ilə əlaqədar kənd və qəsəbələrin icra nümayəndələri, bələdiyyə sədrləri ilə görüşlər keçirilir, öz evində turist qəbul edən sakinlərə məsləhətlər verilir. Turist marşrutlarının yenilənməsi unudulmur. Bir sözlə, bu sahədə həyata keçirilən hazırlıq işləri deməyə əsas verir ki, cari mövsümdə rayona gələcək yerli və xarici turistlərin sayında artım olacaq.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# İş-gücün qaynayan vaxtıdır

## Tütünçülər və kümdarlar əzmkarlıq göstərirlər

Ölkəmizdə aqrar sektorun inkişaf etdiyi rayonlar sırasında Şəki xüsusi seçilir. Burada kənd təsərrüfatının digər sahələri ilə yanaşı, ənənəviliyi ilə seçilən tütünçülüyə və baramaçılığa da xüsusi önəm verilir.





Keçən il Şəkidə 877 hektardan 2 min 977 ton quru tütün yığılaraq emal olunub. Cari ildə isə 1030 hektarda tütün əkini proqnozlaşdırılıb. Son məlumata görə, artıq 850 hektara tütün əkilib. Qalan 180 hektara may ayının sonuna qədər tütün şitili köçürülməsinin tamamlanması nəzərdə tutulub.

Rayonun 25 kəndində tütün əkilir və sahələrdə 2200-dən çox adam çalışır. Əkilən tütün sahələrinin 614 hektarını Virciniya, 236 hektarını "İmmuni-580", "Zaqatala-65" və digər sortlar təşkil edir. Ümumilikdə cari mövsümdə 4 min tondan çox quru tütün istehsalı proqnozlaşdırılır.

Hazırda tütün sahələrində qızğın iş gedir. Tütünçülüyün inkişafına dövlət tərəfindən verilən dəstək istehsalçılarda sahəyə marağı xeyli artırıb. Aşağı Layısqı kənd sakini Əlövsət Mustafayev əldə etdiyi yüksək nailiyyətlərə görə 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.

İpəkçilikdən də söz düşəndə ilk olaraq Şəki yada düşür. Şəkinin ipəkçilikdə qazandığı uğurlar təkcə Azərbaycanda deyil, onun hüdudlarından uzaqlarda da məlumdur. Keçən il rayonda 48 ton barama istehsal edilib. Bu il isə 45 kənddə kümdarlara 1800 qutu barama qurdu paylanıb. 1346 ailə bu işə cəlb olunub. Cari ildə 72 ton barama istehsalı proqnozlaşdırılıb.

Yem məsələsinə gəldikdə, 2018-ci ilin payızında rayonda 168 min tut tingi əkilərək aqrotexniki qulluq göstərilib.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Gün ərzində 100-110 hektar taxıl sahəsinin məhsulu yığılır

Biləsuvarda fərdi fermer təsərrüfatlarında taxıl biçininə başlanılıb və qısa müddətdə 1449 hektarda biçin aparılıb. Hər hektarın məhsuldarlığı orta hesabla 30 sentnerə çatır.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-ın bölgə müxbirinə bildiriblər ki, 2018-ci ilin payızında cari ilin məhsulu üçün 29 min 638 hektar sahədə taxıl əkilib. Bunun 14 min 185 hektarı arpa, 15 min 452 hektarı isə buğdadır. Ötən il hər hektar taxıl sahəsindən 28 sentner məhsul götürən torpaq mülkiyyətçiləri bu il bu nəticəni artırmaq üçün sahələrə nümunəvi qulluq göstəriblər. Nəticədə taxıl sahələrində bol məhsul yetişib. Bir neçə gündür ki, zəmilərdə yetişmiş məhsulun yığımına başlanılıb. Biçin ilk olaraq arpa sahələrində aparılır. Rayonda yığım kampaniyasını vaxtında başa çatdırmaq üçün bütün qüvvələr səfərbər olunub, əsas diqqət məhsulun itkisiz yığılmasına yönəldilib.

Bu məqsədlə sahələrə 52-yə yaxın kombayn çıxarılıb, 150-dən çox maşın və mexanizm işə cəlb olunub. Hər gün 100-110 hektar arpa sahəsinin məhsulu yığılır. Mütəxəssislərin fikrincə, bu il rayonda təxminən 90 min ton məhsul istehsal etmək mümkün olacaq.

Qeyd edək ki, ötən il rayonda 83 min ton taxıl yığılıb və hər hektarın məhsuldarlığı 28 sentner olub.

*Əvvəli 1-ci səh.*

Kənd təsərrüfatı işlərindən yaxşı baş çıxaran İ.Bağırovdan biçinə hazırlığın vəziyyətini soruşduqda bildirdi ki, bu günlər icra hakimiyyətinin şura iclasında sözügedən məsələ müzakirə olunacaqdır. Öyrənirik ki, keçən ilin payızında 2019-cu ilin məhsulu üçün 7 min 496 hektarda buğda, 2 min 786 hektarda arpa, 2 min 661 hektarda vələmir əkilmişdir. Məhsulun optimal müddət ərzində itkisiz yığılıb tədarük edilməsi üçün tədbirlər planı da hazırlanıb. Kombaynlar, qoşqulu traktorlar, taxıldaşıyan maşınlar saz vəziyyətə gətirilmiş, texniki xidmət briqadaları yaradılmış, yanğına qarşı tədbirlər müəyyənləşdirilmişdir. Rayon üzrə yaradılmış qərargah bu mühüm kampaniyanın gedişini nəzarətdə saxlayacaqdır.

Asfalt yoldan sola burulub Əhmədli kəndinə gedirik. Uzaqdan tarladakı adamlar diqqətimizi cəlb edir. Çoxu da qız-gəlindir. Maşını saxlayıb onları salamlayır, "qollarınız yorulmasın, məhsulunuz bol olsun" deyirik. Sahənin o başından ahıl bir adam bizə yaxınlaşır. Bu, sahibkar Hacı Hadı İsmayılovdur. Görüşüb hal-əhval tutur, işlərinin necə getdiyi ilə maraqlanırıq.

- Şükür, keçən illə müqayisədə pis deyil. Məhsuldarlıq da yaxşıdır, qiymət də. Hər hektardan 30-35 ton faraş kartof götürürük. Yaxşıdır. Kiloqramını da elə buradan 50 qəpiyə verirəm. Alıcılar özləri gəlib aparırlar. 3,7 hektar sahəm var. 2,7 hektarı kartof, 1 hektarı çiyələkdir. Keçən ilin oktyabr ayında əkmişik. Çiyələyin də birinci məhsulunu dərmişik. Onun da kiloqramını 1 manatdan vermişəm.

Faraş fartof daxili bazarlara, həmçinin Rusiya Federasiyası şəhərlərinin, qonşu Gürcüstanın bazarlarına aparılır. Bütövlükdə rayon üzrə bu il 844,5 hektarda kartof əkilmişdir. Digər mülkiyyətçilər də faraş məhsulu çıxarıb münasib qiymətə satırlar.

Xırmandalı kəndi Əhmədli yaşayış məntəqəsi ilə bir istiqamətdə - rayonun şimal-şərq hissəsində yerləşir. Düzənlik ərazi olduğundan kənd təsərrüfatı məhsulları yetişdirmək üçün əlverişli şəraiti var. Burada cari ilin məhsulundan ötrü buğda, arpa, vələmir bitkiləri ilə yanaşı, 250 hektarda badımcan, 5 hektarda tütün, 300 hektarda tərəvəz əkilmişdir. Kəndin zəhmət adamlarından biri - mülkiyyətçi Rasim Əzizovla sahədə görüşdük. Cərgələr arasını gəzərək kolları nəzərdən keçirirdi. Əmələ gələn xırda badımcanları göstərib "Bunların belə balaca olmasına baxmayın, axşamüstü sahəni suvardıqdan sonra sabah səhər dərilməli olacaq" deyir. R. Əzizov keçən il də badımcan əkib-becərib. Hər hektardan 10 min manat xalis gəlir əldə edib. İl uğurlu gələndə bu rəqəm 12-13 min manata yüksəlir. Əkdiyi Kanada sortu həm məhsuldardır, həm də keyfiyyətli. Hektardan 3-4 ton badımcan götürür. Yetişdirdiyi məhsul yerli bazarlarla yanaşı, Rusiya bazarlarınada göndərilir. Sahibkar R.Əzizov bu il xeyli sahədə yemiş də əkib. İyun ayının 10-da ilk məhsulunu bazara çıxaracaqdır. O, bütün işləri 6 nəfərdən ibarət ailə üzvləri ilə görür.

# Qeyri-neft sektoru

# Bol nemətli Masallı

Təkdam kəndində əvvəllər də barama saxlanılıb. Ona görə də o vaxtdan salınmış tut bağlarının müəyyən hissəsi qalır. Baramaçılığın inkişaf etdirilməsi ilə bağlı həmin tut ağacları barama saxlayanların işinə yarayır. Bunu nəzərə alaraq 2 ailə 4 qutu barama toxumu bəsləyir. 4 qutunun 2-si Həsənli, 2-si Təkdam kəndindəki kümçülərdədir. Təkdam sakini Məhəmməd Hüseynov götürdüyü ipəkqurdlarını 5 nəfərdən ibarət ailə üzvləri ilə bəsləyir. M.Hüseynov deyir ki, 2 qutu ipəkqurdunu mayın 8-də götürüb, saxlanması və yemlənməsini hər gün diqqətdə saxlayır. Baramanın yetişmə müddəti 40 gündür. Yaxşı yemlənsə, 25-30 günə başa gəlir. Hazırda yeni tut bağları salınır. Təkcə Həsənli kəndi ərazisində 1000 ədəd Çin Xalq Respublikasından gətirilmiş, 2 min isə yerli tut tingləri əkilmişdir. Keçən il rayonda 3 min 407 kiloqram barama istehsal olunmuş və həmin məhsul "Azər-İpək" MMC-yə verilmişdir. Təhvil verilmiş baramanın hər kiloqramına görə 9 manat olmaqla kümçülərin hesabına 29 min 645 manatdan çox vəsait köçürülmüşdür. Bu il isə rayona bölgü əsasında 125 qutu ipəkqurdu toxumu gətirilmişdir. Qax Damazlıq İpəkçilik Stansiyasından alınan həmin barama toxumları 48 kümçüyə paylanılmışdır.

Rayon üçün ənənəvi əkinçilik sahəsi olan çəltikçiliyin inkişafının sürətləndirilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, keçən il 302 hektarda çəltik yetişdirilmiş, orta məhsuldarlıq 33,5 sentner olmaqla 1010 ton məhsul istehsal edilmişdir. Burada çəltiyin əsasən haşimi, apola, okean, sədri və şirudi sortları yetişdirilir. Bir neçə il əvvələdək çəltik respublikamızda, eləcə də Masallı rayonunda primitiv yolla əkilib-becərilirdi. Artıq bu sahədə çətinliklər aradan qaldırılıb. "Masallı Nemətləri" MMC tərəfindən çəltik əkini üçün zəruri olan bir sıra müasir texnikalar (konveyer, lazerhamarlayıcı, çəltik şitili əkən aqreqat) alınaraq rayona gətirilmişdir. Çəltikçilikdə əsas vacib amil su təminatıdır. Keçən ildən fərqli olaraq, hazırda su hövzələrində kifayət qədər su ehtiyatı var. Masallı Dövlət Aqrar İnkişaf Mərkəzinin və Viləş Su Anbarı İstismar İdarəsinin mütəxəssisləri birlikdə kənd təsərrüfatı bitkilərinin vaxtında suvarılması məqsədilə lazımi tədbirlər görmüşlər. Cari ildə rayon üzrə 185 hektarda çəltik əkilməsi planlaşdırılmışdır. Biz rayonda olarkən bu iş davam etdirilirdi.

Çiyələyin gəlirli sahə olduğunu görən fermerlər son illər bu sahəyə diqqəti artırmışlar. Cəlilabaddan Masallıya gedən şose yolunun hər iki tərəfindəki çiyələk sahələrində qızğın iş getdiyini görürsən. Onlar indi əsasən məhsul yığımı ilə məşğuldurlar. Masallıda hazırda 133,3 hektar çiyələk sahəsi var. Bu işlə məşğul olanlardan biri Cəsarət Əzizovdur. O, 2013-cü ildə icarəyə 4 hektar torpaq sahəsi götürüb çiyələk əkmişdir. Hazırda onun 26 hektar çiyələk sahəsi vardır. Zaman keçdikcə təcrübəsi də artmışdır. Daha məhsuldar albion, sarandres Amerika sortlarını əldə etmişdir. İndi burada gün ərzində 1,5-2 ton məhsul yığılır. Məhsuldarlıq da pis deyil - hektardan 150-200 sentner. Əldə edilən məhsul daxili bazarlarla yanaşı, Rusiyaya da göndərilir. Bunun üçün sahənin kənarında, ağaclar arasında soyuducu quraşdırılmışdır. Yığılan məhsul sahədən bura gətirilərək çeşidlənir, üzərində "Made in Azerbaijan" yazılmış xüsusi taralara qablaşdırılır. Növbəti mərhələdə soyuducu kameraya ötürülür. Sonra avtorefrijeratorla uzaq məsafələrə, əsasən Rusiya bazarlarına göndərilir. 26 hektar sahənin becərilməsi və məhsulunun yığılması ilə 110 işçi məşğul olur. Fermer C.Əzizov yaxın vaxtlarda il boyu çiyələk yetişdirmək üçün istixana yaratmağı qərara almışdır. Bundan ötrü mal-marerial almış, hazırlıq işləri görülür.

Çayçılıq və sitrus meyvəçiliyi də Masallı üçün ənənəvi sahələrdəndir. Əmək tutumlu olan həmin sahələrin genişləndirilməsi rayon iqtisadiyyatının inkişafına müsbət təsir göstərəcək. Hazırda rayonda 105 hektar çay plantasiyası mövcuddur. Bunun 4 hektarı keçmiş SSRİ dövründən qalmışdır və Kolatan kəndi ərazisindədir. 1 hektar yeni salınmış, 100 hektar 2015-2018-ci illər ərzində "Azərsun Holdinq" tərəfindən əkilib-becərilən çay plantasiyalarıdır. Bundan əlavə, cari ildə rayonun Kolatan kənd sakini Mübariz Abuşov və Tüklə kəndində yaşayan Təbib Mehdiyev çay tingliyi təsərrüfatı yaratmışlar. Masallı Rayon İcra Hakimiyyəti, Kənd Təsərrüfatı Nazirliyi və Dünya Bankının birgə layihəsi əsasında rayonda müasir çay tinglik təsərrüfatının yaradılması və daha 50 hektarda çay plantasiyasının salınması nəzərdə tutulmuşdur. Kolatan kənd sakini Hacı Etibar Sadıqov xeyirxah bir işi öhdəsinə götürüb - inkubatorunda çıxarılan cücələrdən kənd əhalisinə pulsuz verir.













E.Sadıqovla görüşüb söhbət etdikdə məsələ təfərrüatı ilə aydın oldu. Dedi ki, layihənin müəllifi rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynovdur. Məqsəd kənd əhalisinin məşğulluğunu artırmaq, ərzaq bolluğu yaratmaqdır. Bu məqsədlə bu il aprelin 2-də "Günel" qadınlar qrupu yaradılmışdır. Onun hələlik 40 üzvü var. Sonra əlavə etdi: "Şəxsi mülkiyyətimdə hər birinin tutumu 2 min 200 olan inkubator üçün damazlıq yumurtalar alıb gətirdim. İndiyə kimi 26 ailəyə 3 min 500 cücə paylamışıq. May ayının sonuna qədər daha 14 ailəyə 2 min 500 cücə verməyi planlaşdırmışıq. Biz bu işi kor-koranə etmirik. Cücə saxlayan ailələrin evinə baxış keçiririk, münasib yerin olub-olmadığını müəyyənləşdiririk. Ondan sonra saxlayacağı yerin həcminə, şəraitinə görə onlara cücə veririk. Miqdarı nəzərə almaqla verilən cücələrin ümumi sayından xəstəlik, ölüm-itim riskini də nəzərə alırıq. Məsələn, verilən 200 cücədən 50-si çıxdaş edilə bilər. Rayon Dövlər Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri vaxtlı-vaxtında həmin ailələrə baş çəkir, cücələri müayinə edir, vaksinasiya aparırlar. Bir məsələni də öz üzərimə götürmüşəm. Belə ki, cücə yemlərini pulsuz olaraq mütəmadi surətdə ailələrə çatdırırıq. Bunun üçün maşın ayırmışıq. Yem üçün kifayət qədər arpa, buğda, qarğıdalı əkmişik. Bunları dəyirmanda çəkirik. Dərman komponentlərini də dükanlardan alırıq. Gələcəkdə fəaliyyətimizi daha da genişləndirməyi nəzərdə tutmuşuq. Rayonun digər kəndlərinin sakinlərinə də pulsuz cücə verəcəyik. Amma bir məsələni də qeyd etmək istəyirəm. Verilən cücənin müəyyən, daha dəqiq desək, 30 faizi çıxdaş edilə bilər. Qalanı yerində olmalıdır. Bilirik ki, 5 aydan sonra saxlanılan həmin cücələr böyüyüb yumurtlamalıdır. Kəndli həmin yumurtaları yeməklə bərabər, qalanını satıb pulunu digər ehtiyacına xərcləyəcək".

Əsl vətəndaş, sahibkarlıq nümunəsi göstərən Etibar Sadıqova xeyirxah işində uğurlar arzulayıb ayrılırıq.

Masallıdan olan sahibkar İlkin Şükürov 2013-cü ildə 10 hektarlıq istixana yaratmışdır. Bu işdə Sahibkarlığa Kömək Fondu da ona dəstək olmuşdur. İstixanada, əsasən, Türkiyənin "Bandita" pomidor sortu yetişdirilir. Yığılan məhsul yerli bazarlarla yanaşı, Rusiya Federasiyasının ayrı-ayrı şəhərlərinə göndərilir. İstixanada daimi olaraq 60 nəfər çalışır. Müasir texnologiyalar əsasında quraşdırılan istixanada işlərin 80 faizi avtomatlaşdırılmışdır.

Arıçılığın inkişafı məqsədilə rayonda mühüm tədbirlər görülür. Keçən ildən başlayaraq hüquqi və fiziki şəxslərə saxladıqları hər arı ailəsinə görə 10 manat subsidiya verilir. Keçən il 420 nəfər istehsalçıya 7 min 424 arı ailəsinə görə 74 min 240 manat subsidiya ödənilmişdir. Hazırda rayon üzrə arı saxlayanların sayı 484 nəfərdir.

Heyvandarlıq sahəsindəki nəticələr də qənaətbəxşdir. 2019-cu ilin əvvəlinə rayon üzrə qaramalın sayı 72,7 min, davarın sayı 90,5 min baş olmuşdur. Heyvandarlığın cins tərkibini yaxşılaşdırmaq üçün ilin birinci rübündə 697 baş inək süni yolla mayalandırılmış, 503 baş sağlam buzov alınmışdır. Hər buzova görə 100 manat olmaqla sahibkarlara 50 min 300 manat vəsait verilmişdir.

Rayonda kənd təsərrüfatının inkişaf etdirilməsi, o cümlədən region üçün ənənəvi olan sahələrin genişləndirilməsi, ixtisaslaşmanın aparılması, növbəli əkin sisteminə keçid, kooperasiyaların yaradılması istiqamətində sahibkarlar, torpaq mülkiyyətçiləri, fermerlər arasında maarifləndirmə işləri aparılmış, bu mühüm məsələlər həmişə diqqət mərkəzində saxlanılmışdır.

Bəli, Masallı camaatı yenidən torpağa qayıdıb. Bu, dövlətin, Prezident İlham Əliyevin aqrar sahəyə göstərdiyi diqqət və qayğının nəticəsidir. Qəbul edilən dövlət proqramları, kənd təsərrüfatı məhsullarının satınalma qiymətlərinin artırılması, verilən subsidiyalar, edilən güzəştlər, yeni texnika və texnologiyanın tətbiqi kəndlini torpağa daha da yaxınlaşdırmışdır. Bu, eyni zamanda yeni iş yerləri, zəhmət adamının gün-güzəranının yaxşılaşması, məhsul bolluğu, idxaldan azad olmaq, ixrac imkanları deməkdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin iyun ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli

| Mərkəzi icra hakimiyyəti orqanları, digər qurumlar | Qəbul günü | Qəbulun keçirildiyi və əhatə etdiyi şəhər, rayonlar |
|---|---|---|
| **Vüqar Əhmədov**<br>"Azərişıq" ASC-nin sədrinin vəzifəsini icra edən | 03 | Quba, Qusar |
| **Ramil Yusifov**<br>"Azərişıq" ASC-nin sədrinin müavini | 03 | Xaçmaz, Şabran |
| **Azad Rəhimov**<br>Gənclər və idman naziri | 07 | İsmayıllı, Qəbələ, Oğuz |
| **İsmayıl İsmayılov**<br>Gənclər və idman nazirinin müavini | 07 | Zaqatala, Balakən |
| **Rüstəm Usubov**<br>Baş prokurorun birinci müavini | 07 | Daşkəsən, Kəlbəcər |
| **Əkbər Hacıyev**<br>ARDNŞ-in "Azəriqaz" İB-nin baş direktoru | 07 | Ağsu |
| **Ramil İsgəndərov**<br>ARDNŞ-in "Azəriqaz" İB-nin baş direktorunun müavini | 07 | Qobustan |
| **Ruslan Əliyev**<br>ARDNŞ-in "Azəriqaz" İB-nin baş direktorunun müavini | 07 | Şamaxı |
| **Rövşən Rzayev**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri | 12 | Quba, Qusar |
| **Sabir Əhmədov**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 12 | Şabran, Siyəzən |
| **Fuad Hüseynov**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 12 | Xaçmaz |
| **Vilayət Zahirov**<br>Ədliyyə nazirinin müavini | 12 | Samux |
| **İntiqam Babayev**<br>Gənclər və idman nazirinin müavini | 12 | Şəki, Qax |
| **Hicran Hüseynova**<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri | 13 | Şəki, Oğuz |
| **Aynur Sofiyeva**<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 13 | Qax, Zaqatala, Balakən |
| **Ceyhun Həsənov**<br>Ədliyyə nazirinin müavini - Penitensiar Xidmətin rəisi | 13 | Göygöl |
| **Ramiz Rzayev**<br>Ali Məhkəmənin sədri | 14 | Şirvan |
| **Hikmət Mirzəyev**<br>Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyasının sədri | 14 | Saatlı |
| **Şahin Yusifov**<br>Ali Məhkəmənin Cinayət kollegiyasının sədri | 14 | Sabirabad |
| **Fikrət Məmmədov**<br>Ədliyyə naziri | 14 | Gəncə |
| **Kəmaləddin Heydərov**<br>Fövqəladə hallar naziri | 14 | Şəki, Qax |
| **Rəfail Mirzəyev**<br>Fövqəladə hallar nazirinin birinci müavini | 14 | Balakən |
| **Etibar Mirzəyev**<br>Fövqəladə hallar nazirinin müavini | 14 | Zaqatala |
| **Namiq Əsgərov**<br>Baş prokurorun müavini | 14 | Goranboy, Xocalı |
| **Oruc Zalov**<br>Daxili işlər nazirinin müavini | 14 | Şirvan, Hacıqabul, Sabirabad, Saatlı, İmişli, Zərdab, Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl |
| **Sahib Ələkbərov**<br>Vergilər nazirinin müavini | 14 | İmişli, Ağcabədi, Beyləqan, Xocavənd, Füzuli, Laçın |
| **Mətin Eynullayev**<br>Vergilər nazirinin müavini | 14 | Ağsu, Şamaxı, Qobustan |
| **Qorxmaz Hüseynov**<br>"Azərsu" ASC-nin sədri | 14 | Quba, Qusar |
| **Namiq Babayev**<br>Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası sədrinin müavini | 14 | Şəki, Oğuz |
| **Teyyub Cabbarov**<br>"Azərsu" ASC-nin sədrinin birinci müavini | 17 | Xaçmaz |
| **Etibar Məmmədov**<br>"Azərsu" ASC-nin sədrinin müavini | 18 | Şabran, Siyəzən |
| **Əhməd Əhmədzadə**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri | 19 | Sabirabad, Saatlı |
| **Arzu Rəhimov**<br>Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi | 20 | Lənkəran, Astara |
| **Mayıl Şahverdiyev**<br>Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini | 20 | Lerik |
| **Zakir Qaralov**<br>Baş prokuror | 21 | Yardımlı, Astara, Lerik |
| **Şahin Mustafayev**<br>İqtisadiyyat naziri | 21 | Ağcabədi, Laçın |
| **Niyazi Səfərov**<br>İqtisadiyyat nazirinin müavini | 21 | Ağdam, Bərdə |
| **Sahib Məmmədov**<br>İqtisadiyyat nazirinin müavini | 21 | Tərtər, Naftalan |
| **İnam Kərimov**<br>Kənd təsərrüfatı naziri | 21 | İsmayıllı, Qəbələ |
| **İlham Quliyev**<br>Kənd təsərrüfatı nazirinin müavini | 21 | Şamaxı, Ağsu |
| **Seyfəddin Talıbov**<br>Kənd təsərrüfatı nazirinin müavini | 21 | Göyçay, Ağdaş |
| **Əbülfəs Qarayev**<br>Mədəniyyət naziri | 21 | Balakən, Zaqatala |
| **Vaqif Əliyev**<br>Mədəniyyət nazirinin birinci müavini | 21 | Şəki, Oğuz |
| **Rafiq Bayramov**<br>Mədəniyyət nazirinin müavini | 21 | Qax |
| **Ramin Quluzadə**<br>Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri | 21 | Oğuz, Şəki |
| **Əli Abdullayev**<br>Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini | 21 | Qəbələ |
| **Oqtay Şirəliyev**<br>Səhiyyə naziri | 21 | Quba, Qusar |
| **Elsevər Ağayev**<br>Səhiyyə nazirinin müavini | 21 | Xaçmaz |
| **Rahim Əliyev**<br>Səhiyyə nazirinin müavini | 21 | Siyəzən, Şabran |
| **Mikayıl Cabbarov**<br>Vergilər naziri | 21 | Zaqatala, Balakən, Qax |
| **Sahir Məmmədxanov**<br>Vergilər nazirinin birinci müavini | 21 | Ucar, Göyçay, Kürdəmir, Ağdaş, Zərdab |
| **Saleh Məmmədov**<br>Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri | 21 | Qax, Zaqatala |
| **Əvəz Qocayev**<br>Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini | 21 | Balakən |
| **Səfər Mehdiyev**<br>Dövlət Gömrük Komitəsinin sədri | 22 | Gəncə, Samux |
| **İsmayıl Hüseynov**<br>Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini | 22 | Göygöl |
| **Əsgər Abdullayev**<br>Dövlət Gömrük Komitəsi sədrinin müavini | 22 | Daşkəsən |
| **Vilayət Eyvazov**<br>Daxili işlər nazirinin birinci müavini | 22 | Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı |
| **Mübariz Qurbanlı**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri | 25 | Şəki |
| **Siyavuş Heydərov**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 25 | Qəbələ |
| **Gündüz İsmayılov**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 25 | Oğuz |
| **Firidun Qurbanov**<br>Təhsil nazirinin müavini | 25 | Qax, Zaqatala, Balakən |
| **Zakir Quliyev**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 25 | Salyan |
| **Rafiq Aslanov**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 25 | Hacıqabul |
| **Muxtar Babayev**<br>Ekologiya və təbii sərvətlər naziri | 28 | Quba, Qusar |
| **Firdovsi Əliyev**<br>Ekologiya və təbii sərvətlər nazirinin müavini | 28 | Xaçmaz, Şabran |
| **Rauf Hacıyev**<br>Ekologiya və təbii sərvətlər nazirinin müavini | 28 | Siyəzən, Xızı |
| **Pərviz Şahbazov**<br>Energetika naziri | 28 | Xaçmaz, Şabran |
| **Samir Vəliyev**<br>Energetika nazirinin müavini | 28 | Quba, Qusar |
| **Elnur Soltanov**<br>Energetika nazirinin müavini | 28 | Siyəzən, Xızı |
| **Sahil Babayev**<br>Əmək və əhalinin sosial müdafiəsi naziri | 28 | Gəncə |
| **Anar Kərimov**<br>Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini | 28 | Göygöl |
| **Mətin Kərimli**<br>Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini | 28 | Samux |
| **Ceyhun Bayramov**<br>Təhsil naziri | 28 | Şəki, Oğuz, Qəbələ |
| **Kərəm Həsənov**<br>Əmlak Məsələləri Dövlət Komitəsinin sədri | 28 | Şabran |
| **Rafiq Cəlilov**<br>Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 28 | Xızı |
| **Rüstəm Şahbazov**<br>Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 28 | Siyəzən |
| **Məleykə Abbaszadə**<br>Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri | 28 | Qax, Zaqatala, Balakən |
| **Ramil Usubov**<br>Daxili işlər naziri | 29 | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı |

**Qeyd:** Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən təşkilatların səlahiyyətlərinə aid olmalıdır.

# IDEA İctimai Birliyinin təşkilatçılığı ilə Novxanı çimərliyində təmizlik aksiyası keçirilib







Çimərlik mövsümünün açılışı ilə əlaqədar mayın 30-da IDEA İctimai Birliyinin təşkilatçılığı, Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə növbəti ənənəvi sahilyanı təmizlik aksiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, Novxanı çimərliyində təşkil edilən aksiyaya Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və 100 nəfərə yaxın könüllü gənc qoşulub.

Tədbirin əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dəniz ətraf mühitinin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir.

Qeyd edək ki, aksiyanın keçirilməsi üçün xüsusən ictimai çimərlik seçilmiş, insanların rahat, təmiz və təhlükəsiz məkanda pulsuz istirahət edə bilməsi üçün ərazidə oturacaqlar və sanitar qovşaq quraşdırılıb, voleybol üçün meydança salınıb, zibil qutuları yerləşdirilib.

"Sahillər təmiz qalsın" şüarı altında keçirilən təmizlik aksiyası Xəzər dənizi sahillərində gənclərin kütləvi iştirakı ilə baş tutan sayca 11-ci aksiyadır.

Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları DJ-lərin səsləndirdiyi musiqi sədaları altında çimərlikdən 2 tona yaxın tullantı toplayıblar. Daha sonra tullantılar çeşidlənərək çimərliklərdə ən çox müşahidə olunan zibillər müəyyən edilib. Tullantıların toplanması prosesini daha effektiv təşkil etmək məqsədilə əraziyə xüsusi texnika cəlb olunub.

IDEA İctimai Birliyi yerli və beynəlxalq tərəfdaşlarla birgə mütəmadi olaraq Azərbaycan və regionun su bioresurslarının qorunub saxlanılması, artırılması və mühafizəsi məqsədilə Xəzər sahillərində, Kür və digər çaylarda təmizlik aksiyaları təşkil edir. Çimərlik mövsümünün başlanmasına qədər IDEA İctimai Birliyi tərəfindən Ümumdünya Ətraf Mühit Gününə həsr olunmuş çox sayda gəncin cəlb olunduğu daha bir təmizlik aksiyasının keçirilməsi planlaşdırılıb.

IDEA İctimai Birliyi bütün təbiətsevərləri ekoloji problemlərin həlli istiqamətində təşkil edilən aksiyalara biganə yanaşmamağa və ətraf mühitin qorunmasına öz töhfələrini verməyə çağırır!

# Məktəblinin vəfatı ilə əlaqədar intensiv istintaq tədbirləri davam etdirilir

Azərbaycan Respublikasının Baş Prokurorluğu intihar edən məktəbli Elina Hacıyevanın işi ilə bağlı məlumat yayıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bakı şəhəri, Səbail rayonu 162 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi, 2004-cü il təvəllüdlü Elina Hacıyevanın təhsil aldığı məktəbin üçüncü mərtəbəsindən özünü ataraq intihar etməsi faktı ilə bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə Bakı Şəhər Prokurorluğunda başlanmış cinayət işi üzrə məktəbin direktoru Sevinc Abbasova Cinayət Məcəlləsinin 143-cü (təhlükədə qoyma) və 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmuş və məhkəmənin qərarı ilə barəsində ev dustaqlığı qətimkan tədbiri seçilib.

İstintaq qrupu tərəfindən cinayət işi üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılmasını təmin etmək məqsədilə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin mütəxəssisləri cəlb edilməklə intensiv istintaq tədbirləri həyata keçirilir. Belə ki, iş üzrə çoxsaylı şahidlər, o cümlədən Elina Hacıyevanın təhsil aldığı məktəbin vəzifəli şəxsləri, müəllimləri və sinif yoldaşları dindirilib, videomüşahidə kameralarına, mobil telefonlara, sənədlərə baxış keçirilib, mobil telefonlarla aparılan danışıqlara, yazışmalara dair məlumatlar əldə edilməklə təhlil olunub.

Cinayət işi üzrə yüksəkixtisaslı, böyük elmi və iş təcrübəsi olan peşəkar ekspertlər cəlb edilməklə komisyon məhkəmə-tibbi, məhkəmə-xətşünaslıq, məhkəmə kompüter-texniki, məhkəmə-psixoloji, məhkəmə-fonoskopik ekspertizaları təyin edilib, müvafiq sorğular verilib.

E.Hacıyevaya tibbi yardım göstərilməsi məqsədilə təcili tibbi yardım xidmətinə vaxtında müraciət olunması, hadisə yerində və xəstəxanada lazımi tibbi yardımın göstərilməsi, müalicəsinin diaqnoza uyğun aparılması, xəstəxanaya gec çatdırılmasının ölümü ilə səbəbli əlaqəsinin olması və sair əhəmiyyət kəsb edən halların aydınlaşdırılması istiqamətində zəruri prosessual tədbirlər həyata keçirilir.

Hazırda cinayət işi üzrə bütün xüsusatlar tam və hərtərəfli araşdırılmaqla toplanmış mötəbər sübutlara əsasən təqsiri müəyyən olunacaq bütün şəxslərin əməllərinə hüquqi qiymət verilməsi təmin ediləcək.

# Qida Təhlükəsizliyi Agentliyi və Baş Prokurorluq birgə məlumat yayıb

Azərbaycan Respublikasında həyata keçirilən dayanıqlı sosial-iqtisadi inkişaf kursunun başlıca prioritetlərindən biri kimi əhalinin sağlamlığının qorunması və qida təhlükəsizliyinin təmin olunması istiqamətində reallaşdırılan ardıcıl və məqsədyönlü tədbirlər davam etdirilir.

Qida təhlükəsizliyi sahəsində şəffaflığın, dürüstlüyün təmin edilməsi, korrupsiyaya qarşı mübarizənin aparılması məqsədilə strateji dövlət idarəetməsinin prinsiplərinə uyğun olaraq bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması və aşkarlanan korrupsiya hüquqpozmalarına qarşı mübarizə çərçivəsində Qida Təhlükəsizliyi Agentliyi ilə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən birgə tədbirlərin görülməsi davam etdirilir.

Qida Təhlükəsizliyi Agentliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, bəzi əməkdaşların ictimai iaşə xidmətləri göstərən ayrı-ayrı fiziki şəxslərə qarşı qanunsuz hərəkətlərə yol verdiyinə dair Qida Təhlükəsizliyi Agentliyinə daxil olmuş məlumatlar əsasında toplanmış materiallar həmin şəxslərin əməllərinə hüquqi qiymət verilməsi üçün Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə göndərilib.

Baş İdarə tərəfindən aparılmış araşdırmalarla agentliyin Bakı regional bölməsinin heyvan sağlamlığı və baytarlıq nəzarəti bölməsinin sektor müdiri Elvin Nağıyevin həmin sektorun məsləhətçisi Araz Qazıyev ilə cinayət əlaqəsinə girərək paytaxtın Binəqədi rayonu ərazisində qanunsuz heyvan kəsimi ilə məşğul olan Röyal Əliyevin istifadəsində olan ət mağazasının fəaliyyətinin məhdudlaşdırılmamasından ötrü 150 manat və eyni məqsədlə Sabunçu rayonu ərazisində yerləşən zeytun emalı zavodunun ərazisində antisanitar şəraitdə quş kəsimi ilə məşğul olan Taleh Bəbirovdan 300 manat məbləğində rüşvət almalarına əsaslı şübhələr müəyyən edildiyindən fakta görə Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 311.1-ci (rüşvət alma) maddələri ilə cinayət işi başlanıb.

Həmin vəzifəli şəxslərə Cinayət Məcəlləsinin 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma) və 311.3.2-ci (rüşvət alma təkrar törədildikdə) maddələri ilə ittiham elan olunub. E.Nağıyev barəsində məhkəmənin qərarı ilə həbs, A.Qazıyev barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılaraq təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilməsi və məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən ölkə vətəndaşları və sahibkarlara müraciət edərək Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə və 361-11-76, 361-11-48 nömrələri və ya Qida Təhlükəsizliyi Agentliyinin 1003 saylı "Qaynar xətt" əlaqə mərkəzinə və 377-00-77 nömrəli əlaqə telefonları vasitəsilə məlumat vermələrini xahiş edir.

Qida təhlükəsizliyinə və qida məhsulları istehlakçılarının hüquqlarının pozulmasına yönəlmiş qanun pozuntularının qarşısının alınması istiqamətində Qida Təhlükəsizliyi Agentliyi və Baş Prokurorluq tərəfindən bundan sonra da ən ciddi tədbirlər həyata keçiriləcək.


## B İ L D İ R İ Ş

*Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiyanın (bundan sonra - Komissiya) cari fəaliyyətinin təşkilini həyata keçirən Azərbaycan Respublikası Dövlət Neft Fondu, Azərbaycan Respublikasında təbii ehtiyatların istismarı ilə əlaqədar dövlətin bütün daxilolmaları və Azərbaycanın hasilat sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlərin dövlətə ödənişləri barədə 2018-2019-cu illəri əhatə edən hesabatların beynəlxalq mühasibat uçotu standartlarına uyğun şəkildə üzləşdirilməsi, təhlil edilməsi və tələb edilən ümumi məlumatların toplanması məqsədilə Xidmət Təklifləri Sorğusu (bundan sonra "XTS") üsulundan istifadə edərək müsabiqə yolu xidmətlərinin satın alınması məqsədilə*

***təkliflər sorğusu elan edir***

Bununla əlaqədar müsabiqədə iştirak etmək istəyən, Azərbaycan Respublikasında auditor fəaliyyəti ilə məşğul olmağa xüsusi razılığı (lisenziyası) olan, müstəqil və ixtisaslaşmış auditor təşkilatları, XTS tələblərinə uyğun olaraq öz təkliflərini iki mərhələli şəkildə **(Texniki Sənədlər - 21 iyun 2019-cu il, Maliyyə Təklifləri - 28 iyun 2019-cu il saat 14.00-dək)** Azərbaycan Respublikası Dövlət Neft Fonduna təqdim etməlidirlər.

Müsabiqə ilə bağlı əlavə məlumat almaq üçün əlaqələndirici şəxs Nursel Əsgərli ilə (+99412 498-77-53 (daxili 1804) nömrəli telefon və ya **NAsgarli@oilfund.az** elektron poçtu) əlaqə saxlaya bilərlər.

***Tender komissiyası***

## "Azərişıq" ASC müxtəlif mal-materialların satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 3 (üç) LOT üzrə keçirilir:

LOT-1 Müxtəlif kabellərin satın alınması - 400 manat
LOT-2 Müxtəlif muftaların satın alınması - 400 manat
LOT-3 Müxtəlif nəqliyyat sərfiyyatı mallarının satın alınması - 400 manat

"Azərişıq" ASC
Hesab №: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab №: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Zaur Abdullayev, telefon: 440-39-93 daxili (23-32).

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 10 iyul 2019-cu il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 17 iyul 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 18 iyul 2019-cu il saat 16:00-da Ələsgər Qayıbov küç., 8 ünvanında, "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI

*Təkrar*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 7 LOT üzrə keçirilir.

**LOT 1:** 1164 ədəd müxtəlif amperajlı 12V, 200 ədəd müxtəlif amperajlı 6V, 96 ədəd müxtəlif amperajlı 2V-luq stansiya tipli akkumlyatorların satın alınması

**İştirak haqqı: 1500 (bir min beş yüz) manat**

**LOT 2:** 10000 ədəd 3,25 metr hündürlüyündə dəmir-beton calaq, 5000 ədəd 1,2 metr hündürlüyündə ölçü-nişan direyi və ⌀ 5 mm-lik 30 ton yanmış dəmir məftilin satın alınması

**İştirak haqqı: 500 (beş yüz) manat**

**LOT 3:** 53 adda dəftərxana ləvazimatlarının satın alınması

**İştirak haqqı: 500 (beş yüz) manat**

**LOT 4:** IPTV infrastrukturunun satın alınması

**İştirak haqqı: 2000 (iki min) manat**

**LOT 5:** 1000 kq qaynaq lenti, 100 km şüşə lentin, 500 dəst ETZK-1 qaz buraxmayan muftalar üçün VİLAD A-31 və VİLAD B-31 kompaut dəsti və 100 dəst kəndir blok dəstinin satın alınması

**İştirak haqqı: 300 (üç yüz) manat**

**LOT 6:** 1000 ədəd "Huawei" JPX202-FA8-72 - 100x2 reqleti (qoruyucuları ilə birlikdə), 10 000 ədəd LSA-PROFIL 2/10 - 10x2 cütlük reqlet (100 ədəd montaj aləti ilə birlikdə), 1000 ədəd 10 reqletlik montaj darağı, 95 000 ədəd RJ-45 və 5 000 ədəd RJ-11 başlıqlarının satın alınması

**İştirak haqqı: 800 (səkkiz yüz) manat**

**LOT 7:** 360 ədəd 2 kq-lıq (karbon), 276 ədəd 6 kq-lıq (tozlu), 80 ədəd 6 kq-lıq (karbon) yanğınsöndürmə balonlarının və 80 ədəd tam komplektləşdirilmiş yanğınsöndürmə lövhələrinin alınması və 2000 ədəd 6 kq-lıq (tozlu) yanğınsöndürmə balonlarının "Aztelekom" MMC-nin respublikanın regionları üzrə TKQ-da doldurulması xidmətinin satın alınması

**İştirak haqqı: 300 (üç yüz) manat**

Tenderdə yerli və xarici hüquqi şəxslər iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 (əlaqələndirici şəxs: Faiq Mustafayev tel: 012 344-00-00 (372); e-mail: faiq.mustafayev@aztelekom.az ) ünvanından əldə edə bilərlər.

**Müəssisənin adı: "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**SWIFT BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar tender təkliflərini 2 (iki) nüsxədə (əsli və surəti) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin əsli və surəti arasında fərqlər olduqda üstünlük "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **28 iyun 2019-cu il saat 17:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **08 iyul 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanına ("Aztelekom" MMC-nin Tender komissiyasına) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **09 iyul 2019-cu il saat 11:00-da** Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanında - "Aztelekom" MMC-nin inzibati binasında açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## "Azərsu" ASC fərdi mühafizə vasitələrinin və xüsusi geyim formalarının satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 2 LOT üzrə keçirilir:

LOT-1. Fərdi mühafizə vasitələrinin və xüsusi geyim formalarının satın alınması.

LOT-2. Çəkmələrin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: 431 47 67/2288) ala bilərlər.

**Hər bir LOT üzrə iştirak haqqı 200 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **1 iyul 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **9 iyul 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **10 iyul 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Dövlət Gömrük Komitəsi Avtomobil Nəqliyyatı İdarəsi

### *açıq tenderə dəvət edir*

Tender 3 LOT üzrə keçirilir

**LOT 1** - Bakı Dövlət Gömrük İdarəsi üzrə avtomobillərin təmiri və onlara ehtiyat hissələrinin alınması

**LOT 2** - Qərb Ərazi Baş Gömrük İdarəsi üzrə avtomobillərin təmiri və onlara ehtiyat hissələrinin alınması

**LOT 3** - Dövlət Gömrük Komitəsi üzrə avtomobillər üçün yağ və şinlərin alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu İnşaatçılar pros., 2 (əlaqələndirici şəxs: Abdullayev Ceyhun, telefon: (012) 404-22-72; Faks: (012) 404-22-00) ünvanından ala bilərlər.

**İştirak haqqı:**
**LOT 1 - 100 manat**
**LOT 2 - 100 manat**
**LOT 3 - 100 manat**

**Hesab: AZ 53CTRE00000000000002248403**
**VÖEN: 1300433761**
**BANK: Dövlət Xəzinədarlıq Agentliyi**
**KOD: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 10.07.2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 18.07.2019-cu il saat 18:00-a qədər Bakı şəh., İnşaatçılar pros., 2 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 19.07.2019-cu il saat 10:00-da **Dövlət Gömrük Komitəsi Avtomobil Nəqliyyatı İdarəsində** açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərişıq" ASC Sabunçu rayonu ərazisində yerləşən 20/6 kV-luq 34 saylı yarımstansiyanın yenidənqurma işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1** Sabunçu rayonu ərazisində yerləşən 20/6 kV-luq 34 saylı yarımstansiyanın yenidənqurma işlərinin satın alınması - **400 manat**

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93 daxili (22-83))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **10 iyul 2019-cu il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **18 iyul 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **19 iyul 2019-cu il saat 16:00-da** Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında, "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası "2 ədəd maarifləndirici sosial çarxın çəkilməsi və pk.fimsa.az elektron portalının video təlimatının hazırlanması xidməti"nin satın alınması üçün

### *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Palatanın inzibati binasına - Bakı şəhəri, Bülbül pr. 27 ünvanına müraciət edə bilərlər **(əlaqələndirici şəxs: Rüstəm Kərimov, telefon: (+99412) 493-50-58/285; Faks: +99412 498-12-14).**

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyən şəxslər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini (əlavə olaraq qiymət cədvəli və şərtlər toplusunda göstərilən sənədlər) 04 iyun 2019-cu il saat 15:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Tender proseduru Bakı şəhəri, Bülbül pr. 27 ünvanında Palatanın inzibati binasının 3-cü mərtəbəsində 04 iyun 2019-cu il saat 17:00-da başlanacaqdır. Kotirovka sorğusunda tələblərə cavab verən iştirakçılardan ən aşağı qiymət təqdim etmiş malgöndərən qalib hesab olunacaqdır. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## "UEFA Avropa Liqasının finalı 2019" poçt markasında

"Azərmarka" MMC tərəfindən "UEFA Avropa Liqasının finalı 2019" adlı poçt vərəqi tədavülə buraxılıb.

MMC-dən AZƏRTAC-a bildirilib ki, orijinal poçt vərəqi iki növ markadan ibarətdir. Poçt vərəqinin ölçüsü 100x132 millimetr, markanın ölçüsü isə 40x28 millimetrdir.

Poçt markalı vərəq "Azərmarka"nın rəssamı Nəriman Məmmədzadə tərəfindən hazırlanıb. Layihə Belarus Respublikasının "Bobruisk Integrated Printing House" çap evində işıq üzü görüb. Orijinal poçt blokunun tirajı 5 min nüsxədir, hər markanın tiraji isə 20 min nüsxə təşkil edir. Həmçinin "Azərmarka" tərəfindən 200 ədəd "İlk gün" zərfi də dövriyyəyə buraxılıb.



Qeyd edək ki, mayın 29-da UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün Bakı Olimpiya Stadionunda keçirilən final qarşılaşmasında "Çelsi" klubu "Arsenal"ı 4:1 hesabı ilə məğlubiyyətə uğradaraq tarixində ikinci dəfə bu turnirin qalibi adını qazanıb. UEFA Avropa Liqasının Bakı Olimpiya Stadionunda təşkil olunan final oyununda "Çelsi" və "Arsenal" komandalarının start heyətində 15 ölkədən futbolçular iştirak edib. Komandalar bu göstərici ilə avrokuboklarda mövcud rekordu yeniləyiblər.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri Milli Məclisin deputatı Şəmsəddin Hacıyevə əzizi

**BEHBUD HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev və təşkilatın kollektivi YAP Mərkəzi Aparatının məsul işçisi

**AFƏT HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin deputatı Şəmsəddin Hacıyevə əzizi

**BEHBUD HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rəcəb Babaşov və Qazax Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Vüqar Hüseynova həyat yoldaşı

**AFƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi Milli Məclisin deputatı Şəmsəddin Hacıyevə əzizi

**BEHBUD HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi

**HEYBƏT NEMƏT OĞLU MUSTAFAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9055
Sifariş 1778
Qiyməti 40 qəpik